AZƏRBAYCANIN BÜTÖVLÜYÜ, MÜSTƏQİLLİYİ VƏ TƏRƏQQİSİ

# RESPUBLİKA

TƏSİSÇİ: AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN İŞLƏR İDARƏSİ VƏ QƏZETİN REDAKSİYA HEYƏTİ

25 SENTYABR 2018-ci il ÇƏRŞƏNBƏ AXŞAMI № 213 (6246) GÜNDƏLİK İCTİMAİ-SİYASİ, SOSİAL-İQTİSADİ QƏZET WWW.RESPUBLICA-NEWS.AZ

## Monqolustan Prezidenti Xaltmaaqiyn Battulqanın Azərbaycana işgüzar səfəri

# Azərbaycan və Monqolustan prezidentlərinin görüşü olub









**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sentyabrın 24-də ölkəmizə işgüzar səfərə gələn Monqolustan Prezidenti Xaltmaaqiyn Battulqa ilə görüşü olub.**

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı Monqolustan Prezidentini qarşıladı.

Sonra birgə foto çəkdirildi.

Daha sonra dövlət başçılarının görüşü oldu.

**Monqolustan Prezidenti Xaltmaaqiyn BATTULQA dedi:**

- Cənab Prezident, bizim bir çox vətəndaşlarımız, xüsusilə idmançılarımız, güləşçilərimiz Bakıdakı çempionatda iştirak edirlər. Onların hamısı böyük məmnuniyyətlə qeyd edirlər ki, ölkəniz möhtəşəm inkişaf edir. Onlar bunu öz gözləri ilə görürlər. Biz yerə enərkən təyyarədən görünürdü ki, siz çoxlu ağac əkmisiniz, çox təmiz küçələriniz var, çoxlu sayda müasir binalar, idman qurğuları inşa edilib. Bütün bunlar daha çox gəncin idmana yiyələnməsi üçündür və bu, böyüyən nəslin tərbiyəsinə müsbət təsir göstərir.

**Azərbaycan Prezidenti İlham ƏLİYEV dedi:**

- Cənab Prezident, Sizi görməyimə çox şadam. Azərbaycana xoş gəlmisiniz.

Seçkilərdə qələbə münasibətilə məni təbrik etmək üçün zəng vuranda söhbət zamanı biz Bakıda görüşməklə bağlı razılığa gəldik. Mən Sizi dəvət etdim. Şadam ki, Siz Bakıya gəlmisiniz. Siz tanınmış cüdoçusunuz, buna görə də yarışları izləmək Sizin üçün maraqlı olacaq.

Bu görüş bizim ikitərəfli gündəliyimizi, əməkdaşlığımızı gücləndirmək, o cümlədən idman sahəsində qarşılıqlı fəaliyyəti inkişaf etdirməklə bağlı bir çox məsələlərə dair fikir mübadiləsi aparmaq üçün yaxşı fürsətdir. Siz qeyd etdiniz ki, burada çox idman qurğuları var. Bu, belədir. Biz son zamanlar çoxlu idman obyektləri, stadionlar inşa etmişik və nəticələr çox yaxşıdır. Bizim idmançılarımız Rio de Janeyrodakı Olimpiadada 18 medal qazanıblar və idmanın bir çox növlərində, o cümlədən cüdoda da yaxşı nəticələr göstərirlər. Bir daha xoş gəlmisiniz. Mən əminəm ki, Azərbaycana səfəriniz Sizin üçün xoş olacaq.

Görüşdə iqtisadi, kənd təsərrüfatı, ticarət, investisiya, turizm, informasiya-kommunikasiya texnologiyaları, tranzit daşımalar, humanitar, təhsil, xalçaçılıq və Monqolustan tərəfinin Azərbaycan peykinin imkanlarından istifadəsi və "ASAN xidmət" təcrübəsinin bölüşülməsi ilə bağlı məsələlər müzakirə olundu.

Söhbət zamanı, həmçinin beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığa dair fikir mübadiləsi aparıldı.

Sonda xatirə şəkli çəkdirildi.

**AZƏRTAC**

25 sentyabr 2018-ci il RESPUBLİKA

# Baş nazir Novruz Məmmədovun sədrliyi ilə Nazirlər Kabinetinin iclası keçirilib

**Sentyabrın 24-də Azərbaycan Respublikasının Baş naziri Novruz Məmmədovun sədrliyi ilə "Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il üçün iş planı"na uyğun olaraq, Nazirlər Kabinetinin növbəti iclası keçirilib.**

AZƏRTAC xəbər verir ki, iclasda Azərbaycan Respublikasının 2019-cu il üzrə dövlət büdcəsinin və icmal büdcənin layihələri və sonrakı üç il üçün icmal büdcənin göstəriciləri, Azərbaycan Respublikasının 2019-cu il və gələn üç il üzrə iqtisadi və sosial inkişaf konsepsiyası və proqnoz göstəriciləri müzakirə edilib.

Son illər Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uğurlu iqtisadi siyasətin ölkəmizin dinamik inkişafına rəvac verdiyini vurğulayan Baş nazir Novruz Məmmədov, bu baxımdan gələn ilin dövlət büdcəsinin layihəsinin də əldə olunan nailiyyətlər zəminində, habelə dünyada gedən qlobal maliyyə-iqtisadi proseslər nəzərə alınmaqla tərtib edildiyini bildirdi. O qeyd etdi ki, layihənin hazırlanmasında dövlət büdcəsinin həmişəki kimi sosialyönümlü olması, əhalinin maddi rifahının daim yüksəldilməsi əsas götürülüb, xüsusilə qeyri-neft sektorunun inkişafına dəstək verilməsi, dövlətin müdafiə qüdrətinin və təhlükəsizliyinin təmin edilməsi, beynəlxalq müstəvidə nüfuzunun daha da artırılması kimi mühüm amillərə diqqət yetirilib.





Sonra gündəlikdə duran məsələlərə dair Azərbaycan Respublikası maliyyə nazirinin və Azərbaycan Respublikası iqtisadiyyat nazirinin müavininin məruzələri dinlənildi.

Geniş müzakirələrdən sonra qərara alındı ki, təqdim olunan büdcə layihələri bəyənilsin və "Büdcə sistemi haqqında" Azərbaycan Respublikasının Qanununa müvafiq olaraq, büdcə zərfinə daxil olan sənədlər toplusu Azərbaycan Respublikasının Prezidentinə təqdim edilsin.

**AZƏRTAC**

# Dayanıqlı ərzaq və kənd təsərrüfatının dayanıqlı inkişaf məqsədlərinin əldə olunmasına töhfəsinin sürətləndirilməsi müzakirə edilib





**Bakıda dayanıqlı ərzaq və kənd təsərrüfatının dayanıqlı inkişaf məqsədlərinin əldə olunmasına töhfəsinin sürətləndirilməsi müzakirə edilib.**

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurası (DİMƏŞ) və BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) birgə təşəbbüsü ilə Bakıda milli seminar keçirilib. Seminar dayanıqlı ərzaq və kənd təsərrüfatının Azərbaycanda Dayanıqlı İnkişaf Məqsədlərinin nail olunmasına töhfəsinin sürətləndirilməsi mövzusuna həsr olunub.

FAO-nun Azərbaycandakı Tərəfdaşlıq və Əlaqələndirmə ofisinin rəhbəri Mələk Çakmak təmsil etdiyi qurumun Azərbaycanla əməkdaşlığı çox yüksək qiymətləndirdiyini deyib. Bildirib ki, FAO Azərbaycanla 2016-2020-ci illəri əhatə edən əməkdaşlıq sazişi imzalayıb. Sazişə əsasən, yaxın zamanlarda layihələrin icrasına başlanılacaq. "Bu layihələr üzərində 2 ildir işləyirik", - deyən M.Çakmak Azərbaycanda kənd təsərrüfatında məhsuldarlığın artımı ilə yanaşı, qida təhlükəsizliyinə xüsusi diqqət yetirilməsinin önəmini vurğulayıb.

Baş nazirin müavini, Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının sədri Əli Əhmədov qeyd edib ki, Azərbaycan hökuməti FAO ilə əməkdaşlıqdan məmnundur: "Düşünürük ki, bu əməkdaşlıq Azərbaycanda kənd təsərrüfatının inkişafına və modernləşdirilməsinə, ərzaq təhlükəsizliyi probleminin daha yüksək səviyyədə həll olunmasına öz töhfəsini verəcək. Kənd təsərrüfatının inkişafı problemləri bilavasitə dayanıqlı inkişaf məqsədlərinin həyata keçirilməsi ilə sıx əlaqədardır".

Bildirilib ki, hökumətin həyata keçirdiyi uğurlu aqrar siyasət nəticəsində Azərbaycanda insanların qidalanması ilə bağlı problemlər həll olunub. Azərbaycan hökuməti kənd təsərrüfatının inkişaf etdirilməsinə önəm verir. Kənd təsərrüfatının inkişafı dayanıqlı inkişaf məqsədləri ilə bilavasitə bağlıdır. Kənd təsərrüfatı məhsullarının istehsalı ümumi iqtisadi konsepsiyanın həyata keçirilməsində mühüm rol oynayır.

"Azərbaycanda əhalinin 47 faizi kənddə yaşayır. Dayanıqlı inkişaf məqsədlərində qarşıya qoyulan bir sıra hədəflər, o cümlədən işsizliyin və yoxsulluğun aradan qaldırılması, iqtisadiyyatın şaxələndirilməsi kontekstində Azərbaycanın kənd təsərrüfatının inkişaf etdirilməsi mühüm əhəmiyyət daşıyır. 12-13 il ərzində Azərbaycanda yoxsulluq həddi 50 faizdən təxminən 5 faizə endirilib. Kənd təsərrüfatının inkişafı, ilk növbədə, kənddə yaşayan insanların həyatının yaxşılaşdırılmasına, iş yerlərinin artırılmasına, əmək məhsuldarlığının yüksəlməsinə gətirib çıxaracaq ki, bu da bütövlükdə, Azərbaycan əhalisinin ümumi yaşayış səviyyəsinin yüksəlməsinə səbəb olacaq", - deyə Baş nazirin müavini qeyd edib.

Son illər kənd təsərrüfatı sahəsində aparılan islahatlar nəticəsində kənd təsərrüfatı istehsalının xeyli artdığını deyən Əli Əhmədov kənd təsərrüfatı istehsalının Azərbaycanın ümumi məhsulunun formalaşmasında, eyni zamanda, ümumi iqtisadi konsepsiyanın həyata keçirilməsində daha mühüm rol oynadığını diqqətə çatdırıb.

Baş nazirin müavini deyib: "Azərbaycanda ixrac potensialının artırılmasında da biz kənd təsərrüfatına böyük inamla baxırıq. Güman edirəm ki, Azərbaycanın kənd təsərrüfatı, bütövlükdə, ixrac potensialının daha da yüksəlməsinə öz töhfəsini verəcək. Kənd təsərrüfatının inkişaf etdirilməsi əhalinin həyat şəraitinin yaxşılaşdırılması istiqamətində mühüm vəzifələrdən biridir. Bunun üçün Azərbaycan hökuməti bütün qlobal layihələrdə yaxından iştirak edir".

Ölkəmizdə qeyri-neft sektoruna xüsusi diqqət yetirildiyini deyən kənd təsərrüfatı naziri İnam Kərimov bildirib ki, bu sektorun əsas aparıcı istiqamətlərindən biri də aqrar sektordur. Azərbaycanın aqrar sahədə əldə etdiyi nailiyyətlər nümunəvi xarakter daşıyır.

Nazir qeyd edib ki, Azərbaycanın ən böyük uğurlarından biri 2001-2015-ci illərdə yoxsulluğun səviyyəsini 4,9 faizə endirməsidir. Qarşımızda duran vəzifə 2030-cu ilə kimi yoxsulluğu 0 səviyyəsinə endirməkdir.

"Kənd Təsərrüfatı Nazirliyi beynəlxalq qurumlarla, xüsusən FAO ilə sıx əməkdaşlıq edir. Hesab edirəm ki, FAO-nun Azərbaycan üçün 2016-2020-ci illər ölkə proqramı çərçivəsində nəzərdə tutulan bir sıra tədbirlərin birgə icrası dayanıqlı inkişaf məqsədlərinin əldə olunmasına öz müsbət töhfəsini verəcək. Biz bu il təşkilatla konkret sahələr üzrə, o cümlədən toxumçuluq, heyvandarlıq sahəsində bir sıra layihələrin icrasını planlaşdırırıq. Bu sahədə həyata keçirilən tədbirlər birgə işimizin əhəmiyyətini daha da artıracaq. Hər iki qurum məşğulluq sahəsində "Aqrar Məşğulluğun Artırılması Layihəsi"nin birgə icrasını planlaşdırır. Bu layihə həm məşğulluğun, həm də aqrar sahədə məhsuldarlığın artırılmasına xidmət edəcək. Bundan başqa, Kənd Təsərrüfatı Nazirliyi və FAO qadınların məşğulluğunun artırılması sahəsində xüsusi proqram nəzərdə tutub",- deyə nazir vurğulayıb.

BMT-nin rezident əlaqələndiricisi Qulam İsakzai bildirib ki, hazırda dünyada 850 milyon insan aclıq içində yaşayır. Uşaqların üçdəbiri yetərincə qidalanmır. Biz çalışmalıyıq növbəti 12 ildə yoxsulluğu və aclığı azaldaq. Bu baxımdan kənd təsərrüfatı və ərzaq dayanıqlı inkişaf məqsədinin mərkəzində dayanır. Kənd təsərrüfatı bir sıra DİM-lərin əldə olunmasına kömək edir. Bitkiçilik, heyvandarlıq, meşəçilik, balıqçılıq dünyada ən iri işəgötürəndir və yoxsul əhali üçün əsas qida və gəlir mənbəyidir. 2018-ci ildə Azərbaycanın qeyri-neft iqtisadiyyatı 2,1 faiz artıb. Biz çalışırıq ki, dayanıqlı inkişaf məqsədlərinin bütün sektorlar, o cümlədən kənd təsərrüfatında nail olunmasına töhfə verək. BMT FAO ilə bu sahədə yaxından əməkdaşlıq edir.

Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının prezidenti Məmməd Musayev qurumun regionlarda fəaliyyəti, aqrar sahədə mövcud vəziyyət, kənd təsərrüfatı sektorunun inkişafı barədə danışıb.

Seminar sessiyalarla işini davam etdirib.

Tədbirdə kənd təsərrüfatı, ərzaq, meşə təsərrüfatı və balıqçılıq fəaliyyətlərinin Azərbaycanda DİM-lərə nail olunması üçün verəcəyi töhfənin artırılması yolları və lazımi tədbirlər müzakirə olunub.

**AZƏRTAC**

# Heydər Əliyev Beynəlxalq Aeroportunda qarşılanma



**Monqolustanın Prezidenti Xaltmaaqiyn Battulqa sentyabrın 24-də Azərbaycan Respublikasına işgüzar səfərə gəlib.**

AZƏRTAC xəbər verir ki, hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı Heydər Əliyev Beynəlxalq Aeroportunda ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Monqolustan Prezidenti Xaltmaaqiyn Battulqanı hava limanında Azərbaycan Respublikasının gənclər və idman naziri Azad Rəhimov və digər rəsmi şəxslər qarşılayıblar.

**AZƏRTAC**

# Energetika naziri Əlcəzairdə bir sıra görüşlər keçirib

**Azərbaycanın energetika naziri Pərviz Şahbazov Əlcəzairdə keçirilən OPEC+ Nazirlərinin Birgə Monitorinq Komitəsinin X iclası çərçivəsində Neft İxrac Edən Ölkələr Təşkilatının (OPEC) baş katibi Məhəmməd Sanusi Barkindo və Səudiyyə Ərəbistanının energetika, sənaye və təbii sərvətlər naziri Xalid Əbdüləziz Al Falih ilə görüşüb.**



Energetika Nazirliyindən AZƏRTAC-a bildiriblər ki OPEC-in baş katibi Məhəmməd Sanusi Barkindo ilə görüşdə qlobal neft bazarının hazırkı vəziyyəti və OPEC+ formatının institutlaşdırılması məsələləri müzakirə edilib. OPEC Katibliyi ilə Energetika Nazirliyi arasında sıx əməkdaşlıq əlaqələri yüksək qiymətləndirilib. Həmçinin OPEC+ Nazirlərinin Birgə Monitorinq Komitəsinin 2019-cu ildə Bakıda keçirilməsi nəzərdə tutulan toplantısı barədə fikir mübadiləsi aparılıb.

Görüşdə Venesuelanın neft naziri Manuel Salvadore Quevedo Fernandez də iştirak edib. Baş katib 2019-cu ildə OPEC-ə Venesuelanın sədrlik edəcəyini bildirib.

Səudiyyə Ərəbistanının energetika, sənaye və təbii sərvətlər naziri Xalid Əbdüləziz Al Falih ilə görüş zamanı isə OPEC+ əməkdaşlığının nəticələri, neftin qiyməti və neft bazarının inkişafına dair gözləntilər nəzərdən keçirilib. Diqqətə çatdırılıb ki, neftə qlobal tələbatın artması, eləcə də "qara qızıl"ın qiymətinin 75-80 dollar arasında olması bazarda müşahidə edilən müsbət proseslərdir. Bu vəziyyət neft sektorunu investisiyalar üçün yenidən cəlbedici edir.

OPEC+ Nazirlərinin neft hasilatının sutkada 1 milyon barel artırılması ilə bağlı iyunda qəbul etdikləri qərar bazarda artan tələbat və azalan təchizat prosesinin nizamlanması baxımından mühüm addım kimi qiymətləndirilib. Söhbət zamanı ötən dövr ərzində öhdəliklərin icrasında əhəmiyyətli dəyişikliyin baş verdiyi, ilin sonunadək hasilatın artırılmasının nəzərdə tutulmadığı qeyd edilib. Vurğulanıb ki, neft tədarükündə mövcud kəsirin könüllülük prinsipi əsasında ölkələrin hasilat imkanlarına uyğun aradan qaldırılması daha məqbul görünür. Bazarda hər hansı böhran vəziyyəti yaranacağı təqdirdə hasilatla bağlı yeni bir qərarın qəbuluna isə ancaq 2019-cu ildə baxıla bilər. Həmçinin bildirilib ki, neftin qiymətinin həm istehsalçılar, həm də istehlakçılar üçün sərfəli həddə olması və sabitliyin təmin edilməsi məqsədilə bazarın gələcəkdə də tənzimlənməsi vacibdir. Bu məqsədlə OPEC+ ölkələri yeni əməkdaşlıq mexanizmi üzərində iş aparır.

**AZƏRTAC**

# Bakıda Səudiyyə Ərəbistanının milli bayramı qeyd edilib

**Sentyabrın 24-də Səudiyyə Ərəbistanının Azərbaycandakı səfirliyi ölkəsinin milli bayramı - Krallıq elan olunması günü münasibətilə rəsmi qəbul təşkil edib.**





AZƏRTAC xəbər verir ki, hər iki ölkənin dövlət himnləri səsləndirildikdən sonra müvəqqəti işlər vəkili Məmduh əl-Cəbru Səudiyyə Ərəbistanının keçdiyi inkişaf yolundan, müxtəlif sahələri əhatə edən uğurlara imza atmasından danışıb.

Səfir Səudiyyə Ərəbistanının beynəlxalq və regional miqyasda artan mövqeyinə də toxunub. O, Səudiyyə Ərəbistanı Krallığının İslam dünyasının birliyi, əməkdaşlığı yolunda daim çalışdığını vurğulayıb.

Diplomat ölkəsinin Azərbaycan ilə əməkdaşlığa böyük önəm verdiyini bildirib. Hər iki ölkə arasında əlaqələrin inkişafında mühüm mərhələnin baş verdiyini vurğulayıb. Səfir ölkələrimiz arasındakı münasibətlərin daha da möhkəmlənəcəyinə əminliyini ifadə edib.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədr Mübariz Qurbanlı rəsmi qəbulda çıxış edərək Azərbaycan hökuməti adından Səudiyyə Ərəbistanı xalqını təbrik edib, sülh və əmin-amanlıq arzulayıb. O deyib ki, Azərbaycan ilə Səudiyyə Ərəbistanı arasında əlaqələr mehriban dostluq və tərəfdaşlıq prinsiplərinə əsaslanır. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 1994-cü ildə Səudiyyə Ərəbistanına ilk səfəri ilə əsası qoyulmuş yüksək səviyyəli siyasi münasibətlər sonrakı illərdə durmadan inkişaf edib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Səudiyyə Ərəbistanına səfərləri çərçivəsində dövlət başçılarımız arasında, eləcə də digər səviyyələrdə keçirilmiş çoxsaylı görüşlər həm ikitərəfli, həm də beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığımızın inkişafına təkan verib. Səudiyyə Ərəbistanı həmişə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsində Azərbaycanın beynəlxalq hüquqa əsaslanan ədalətli mövqeyini dəstəkləyir, işğalçılıq siyasəti aparan Ermənistanla diplomatik əlaqələr qurmaqdan imtina edir. Ölkələrimiz arasında əlaqələr gələcəkdə daha da inkişaf edəcək.

**AZƏRTAC**

# Azərbaycan OPEC+ Nazirlərinin Birgə Monitorinq Komitəsinin iclasında təmsil olunub

**Əlcəzairdə OPEC+ Nazirlərinin Birgə Monitorinq Komitəsinin X iclası keçirilib.**

İclasda ölkəmizi energetika naziri Pərviz Şahbazov təmsil edib.

Energetika Nazirliyindən AZƏRTAC-a bildiriblər ki, tədbirdə cari ilin avqust ayı üzrə neft hasilatı ilə bağlı Birgə Texniki Komissiyanın təqdimatı və OPEC-in qlobal neft bazarının inkişaf tendensiyalarına dair hesabatı dinlənilib.

2018-ci il iyunun 23-də OPEC və qeyri-OPEC ölkələri nazirlərinin IV iclasında neft hasilatının sutkada 1 milyon barel artırılması ilə bağlı qərarının icra vəziyyəti və bazara təsiri nəzərdən keçirilib.

İclasda iştirak edən Azərbaycanın energetika naziri Pərviz Şahbazovun verdiyi məlumata görə, OPEC+ ölkələri tərəfindən öhdəliklər iyulda 109 faiz, avqustda isə 129 faiz yerinə yetirilib. Bu göstəricilər may ayı ilə müqayisədə bazarın balanslaşması istiqamətində mühüm irəliləyişlər hesab edilib. Nazir deyib: "OPEC+ razılaşmasına hələlik 100 faiz əməl edilməsə də, prosesin gedişatı ümumən qənaətbəxşdir. OPEC və qeyri-OPEC ölkələrinin ümumi rəyi ondan ibarətdir ki, hasilatın artırılmasına hazırkı yanaşma nailiyyətləri ilin sonuna kimi qoruyub saxlamağa imkan verir və hasilat həcmlərinin bölüşdürülməsinə zərurət yoxdur".

İclasda OPEC+ ölkələrinin iyun qərarının tam şəkildə yerinə yetirilməsi üçün koordinasiyalı fəaliyyətin və davamlı tənzimlənmənin vacibliyi qeyd olunub. 2019-cu ildən bazarın vəziyyətinin yenidən təhlili və adekvat qərarların qəbulu məqsədəuyğun sayılıb.

**AZƏRTAC**

# Məhkəmə fəaliyyətinin səmərəliliyinin artırılması istiqamətində tədbirlər görülür




**Dövlətimizin başçısı İlham Əliyevin rəhbərliyi ilə məhkəmə sistemində məqsədyönlü islahatlar aparılaraq bu sahədə qanunvericilik təkmilləşib, hakimlərin şəffaf seçim qaydası müəyyən olunaraq hakim korpusu 60 faiz təzələnib, insanların müraciət imkanlarının asanlaşdırılması məqsədilə yeni məhkəmələr yaradılıb, "Elektron məhkəmə" informasiya sisteminin tətbiqi və məhkəmə infrastrukturunun müasirləşməsi üzrə əməli işlər həyata keçirilib.**

Ədliyyə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, ölkəmizin sürətli sosial-iqtisadi inkişafı və mülki dövriyyənin kəskin artması nəticəsində məhkəmələrin iş həcminin dəfələrlə çoxalması nəzərə alınaraq, bu sahədə zəruri addımlar atılır, o cümlədən mübahisələrin məhkəmədən kənar alternativ həllində mühüm rol oynayan mediasiya institutunun tətbiqi üzrə tədbirlər görülür.

Azərbaycan Prezidentinin tapşırıqlarına uyğun olaraq, məhkəmə qərarlarının ədalətliliyi, məhkəmələrdə şəffaflığın artırılması, korrupsiyanın yolverilməzliyi və vətəndaş-məmur münasibətlərinin sağlam meyarlar üzərində qurulması daim diqqət mərkəzində saxlanılır. Məhkəmə-Hüquq Şurasının qərarları ilə 100-dən çox hakim vətəndaşlarda haqlı narazılıq doğuran nöqsan və pozuntulara yol verdiklərinə görə məhkəmə sistemindən kənarlaşdırılıb, o cümlədən korrupsiya hüquqpozmalarına görə 35 hakim ciddi intizam məsuliyyətinə cəlb edilib.

Məhkəmə fəaliyyətinin təkmilləşdirilməsi üzrə tədbirlər davam etdirilərək, ədliyyə naziri, Məhkəmə-Hüquq Şurasının sədri Fikrət Məmmədovun Ağstafa rayonuna səfəri çərçivəsində Gəncə Apellyasiya Məhkəməsinin və onun yurisdiksiyasına daxil olan bölgənin birinci instansiya məhkəmələri sədrlərinin və hakimlərinin, habelə Ədliyyə Nazirliyinin və Məhkəmə-Hüquq Şurasının aidiyyəti məsul işçilərinin iştirakı ilə geniş zona müşavirəsi keçirilib.

Müşavirədə məhkəmə fəaliyyətində yol verilən nöqsanlar, daxil olan şikayətlər və onları doğuran səbəblər, bununla əlaqədar qarşıda duran vəzifələr müzakirə olunub.

Tədbirdə Prezident İlham Əliyevin qəti siyasi iradəsi ilə respublikamızda korrupsiyaya qarşı sərt mübarizənin aparıldığını vurğulayan Fikrət Məmmədov məhkəmə fəaliyyətində korrupsiyaya şərait yaradan halların yolverilməzliyini diqqətə çatdırıb. Vətəndaşların əsassız get-gələ salınması, işlərə baxılmaması, süründürülməsi, habelə bəzi hakimlərin qeyri-etik davranışı qeyd olunaraq belə halların insanları narazı saldığı, şikayətlər doğurduğu bildirilib.

Bununla bağlı hakim adına və nüfuzuna xələl gətirən hərəkətlərin yolverilməzliyi, lazımi nəticə çıxarmayan və işində dönüş yaratmayan hakimlərə məhkəmə sistemində yer olmadığı qeyd edilib. Bildirilib ki, hazırda 80-dək hakimin fəaliyyətinin prinsipial qiymətləndirilməsi aparılır, habelə yeni qaydalar əsasında şəffaf prosedurlarla seçilmiş 100-dən çox hakimliyə namizədin təyinatı nəzərdə tutulur.

Müşavirədə apellyasiya məhkəmələrindən prinsipiallığın artırılması, qanun pozuntularına ciddi reaksiya verilməsi, neqativ hallara qarşı barışmaz münasibət göstərilməsinin vacibliyi vurğulanıb.

Həmçinin məhkəmə sistemində şəffaflığın artırılması üzrə əlavə tədbirlərin görülməsi, antikorrupsiya mədəniyyətinin yüksəldilməsi, qeyri-prosessual münasibətlərin qarşısının alınması, etik davranış qaydalarına dürüst əməl edilməsi üzrə qarşıda duran vəzifələr diqqətə çatdırılıb.

**AZƏRTAC**

# Azərbaycan Respublikası Prokurorluğunun yaranmasının 100 illiyinə həsr olunmuş konfrans keçirilib




**Sentyabrın 24-də Respublika Hərbi Prokurorluğunda Azərbaycan Respublikası Prokurorluğunun yaranmasının 100 illiyinə həsr olunmuş elmi-praktik konfrans keçirilib. Konfransda Respublika Hərbi Prokurorluğu, Bakı Hərbi Prokurorluğunun əməkdaşları, prokurorluğun veteranları, kütləvi informasiya vasitələrinin nümayəndələri iştirak ediblər.**

Azərbaycan Respublikası Hərbi Prokurorluğunun mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, tədbir iştirakçıları əvvəlcə qurumun inzibati binasında ulu öndər Heydər Əliyevin büstü önünə gül dəstələri qoyaraq nurlu xatirəsini dərin ehtiramla yad ediblər.

Konfransı giriş nitqi ilə açan Azərbaycan Respublikası baş prokurorunun müavini - Azərbaycan Respublikasının hərbi prokuroru, ədliyyə general-leytenantı Xanlar Vəliyev Azərbaycan Prokurorluğunun bir əsrlik tarixinə nəzərə salıb. Qeyd edib ki, yarandığı gündən Azərbaycan Xalq Cümhuriyyətinin dövlət təsisatı, SSRİ prokurorluğunun tərkib hissəsi kimi, həmçinin ölkəmiz dövlət müstəqilliyini bərpa etdikdən sonra uzunmüddətli və mürəkkəb inkişaf yolu keçmiş Azərbaycanın milli prokurorluq orqanları zamanın sərt imtahanlarına məruz qalsa da, sınaqlardan məharətlə çıxaraq cəmiyyətdə hörmət və etibar qazanıb. Hərbi prokuror Xanlar Vəliyev vurğulayıb ki, ümummilli lider Heydər Əliyev hüquq-mühafizə orqanlarının müstəqilliyinin təmin edilməsini respublikamızda həyata keçirilən hüquqi islahatların əsas qayəsi və məqsədi kimi önə çəkib. Yüz il bundan əvvəl Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurasının qərarı ilə Bakı Dairə Məhkəməsinin nəzdində fəaliyyətə başlamış prokurorluq Ulu Öndərin hakimiyyətə qayıdışı ilə həyata keçirilən möhtəşəm və hərtərəfli islahatlar nəticəsində, hazırda tamamilə yenidən qurularaq, mütərəqqi normativ-hüquqi bazaya, demokratik məzmunlu fəaliyyət prinsiplərinə və iş metodlarına malik olan, cəmiyyətdə statusuna uyğun yerini tutmuş təsisata çevrilib.

Respublikanın hərbi prokuroru məhz ümummilli lider Heydər Əliyevin 1998-ci il 17 iyul tarixli Sərəncamına əsasən hər il oktyabrın 1-nin "Prokurorluq işçilərinin peşə bayramı günü" kimi qeyd edilməsinin tarixi ədalətin bərpa olunması ilə yanaşı, hakimiyyət orqanları sırasında xüsusi yeri olan prokurorluğa dövlət qayğısının ifadəsi, ölkəmizdə prokurorluğun roluna rəsmi münasibətin dövlət səviyyəsində təzahürü olduğunu bildirib.

Qeyd olunub ki, müasir müstəqil Azərbaycanın banisi Heydər Əliyevin siyasi irsinin layiqli davamçısı Prezident İlham Əliyev tərəfindən bu gün də prokurorluğa dövlət qayğısı və diqqəti ən yüksək səviyyədədir. Prezidentin müvafiq fərman və sərəncamları ilə təsdiq olunmuş Dövlət proqramlarının icrası nəticəsində prokurorluq orqanlarında bütün istiqamətlər üzrə işin səmərəliliyinin, əməkdaşların peşəkarlıq səviyyəsinin yüksəldilməsi, həmçinin yeni nəsil prokurorluq işçilərinin formalaşdırılması və onların sosial müdafiəsinin gücləndirilməsi istiqamətində konkret tədbirlər həyata keçirilib.

Ulu Öndərin "Mən, Azərbaycan Prokurorluğuna inanıram, güvənirəm və arxalanıram" kəlamının bu gün də hər bir prokurorluq işçisinin qürur mənbəyi olmaqda davam etdiyini bildirən ədliyyə general-leytenantı Xanlar Vəliyev müstəqilliyinin 27-ci ilini yaşayan Azərbaycanın ümummilli lider Heydər Əliyev və onun ideyalarının sadiq davamçısı Prezident İlham Əliyevin düşünülmüş və məqsədyönlü siyasəti nəticəsində böyük uğurları ilə dünyanın diqqət mərkəzində olduğunu, dövlət başçısının apardığı siyasətə xalqımızın tam dəstək verməsinin, iqtidar-xalq birliyinin formalaşmasının ölkəmizin əldə etdiyi və gələcəkdə qazanacağı uğurlarının təməlini təşkil etdiyini vurğulayıb.

Respublikanın hərbi prokuroru dövlət başçısı tərəfindən həyata keçirilmiş qətiyyətli addımlar nəticəsində ordumuzun qüdrətinin hər gün daha da artdığını diqqətə çatdırıb. Bildirib ki, 2016-cı ilin aprel və 2018-ci il ilin may aylarında həyata keçirilmiş uğurlu döyüş əməliyyatları nəticəsində işğal altındakı torpaqlarımızın bir hissəsinin, həmçinin Naxçıvan Muxtar Respublikasının 11 min hektar ərazisinin və Günnüt kəndinin azad edilməsi ordumuzun yüksək döyüş ruhunu və qabiliyyətini, torpaqlarımızı azad etməyə hər an hazır olduğunu və qələbə əzmini əyani nümayiş etdirib.

Tədbirdə iştirak edən Milli Məclisin deputatı Musa Quliyev və Azərbaycan Milli Qeyri-Hökumət Təşkilatları Forumunun prezidenti Rauf Zeyni Azərbaycan Respublikası Prokurorluğunun yaranmasının 100 illiyi və qarşıdan gələn prokurorluq işçilərinin peşə bayramı günü münasibətilə respublika hərbi prokurorluq orqanlarının əməkdaşlarının timsalında bütün prokurorluq əməkdaşlarını təbrik edərək onlara dövlətimizin və dövlətçiliyimizin cinayətkar qəsdlərdən qorunması istiqamətindəki yorulmaz fəaliyyətlərində uğurlar arzulayıblar. Qeyd olunub ki, vaxtilə ulu öndər Heydər Əliyevin və hazırda Prezident İlham Əliyevin prokurorluq işçilərinin əməyinə verdikləri yüksək qiymət hər bir prokurorluq işçisində xalqına və dövlətinə sədaqət hissini gücləndirməklə böyük ruh yüksəkliyi və iftixar hissi yaradır və onları öz fəaliyyətlərinə daha tələbkar, məsuliyyətlə yanaşmağa səfərbər edir.

Sonra Bakı hərbi prokurorunun müavini, ədliyyə mayoru Raul Şahverdiyev "Azərbaycan Prokurorluğunun yaranması və inkişaf tarixi", Respublika Hərbi Prokurorluğunun hüquqi təminat və kadrlar şöbəsinin böyük prokuroru, ədliyyə mayoru Vüsal Əliyev "Hərbi Prokurorluğun prokurorluq orqanları sistemində rolu, prokurorluğun müasirləşdirilməsi istiqamətində aparılan hüquqi islahatlar və prokurorluq orqanlarının fəaliyyətinin hüquqi təminatı", hərbi prokurorluqlarda istintaqa nəzarət şöbəsinin prokuror-metodisti, ədliyyə polkovnik-leytenantı Mehman Poladov "Milli dövlətçiliyin möhkəmləndirilməsində və müasir dövrdə təşəkkül tapmasında prokurorluq orqanlarının iştirakı", Silahlı Qüvvələrdə qanun pozuntuları barədə məlumatların araşdırılması şöbəsinin rəisi, ədliyyə polkovniki Toğrul Hüseynov "Korrupsiyaya qarşı mübarizə prokurorluğun prioritet fəaliyyət istiqaməti kimi" mövzularında çıxışlar ediblər.

Konfransa yekun vuran respublika hərbi prokuroru Xanlar Vəliyev prokurorluq orqanları işçilərinin qarşıdan gələn peşə bayramı günü və prokurorluğun yaradılmasının 100 illiyi münasibətilə prokurorluq orqanlarının hər bir işçisini, veteranları və onların ailə üzvlərini bir daha təbrik edərək, prokurorluğun yüksək mövqe tutan bir qurum kimi formalaşmasında Ulu Öndərin misilsiz xidmətlərini minnətdarlıqla vurğulayıb. Prokurorluq orqanlarından yüksək diqqət və qayğısını əsirgəməyən Prezident İlham Əliyevə dərin ehtiramını bildirərək əmin edib ki, Azərbaycan Respublikası Hərbi Prokurorluğu bundan sonra da Silahlı Qüvvələrdə qanunçuluğun möhkəmləndirilməsi istiqamətindəki fəaliyyətini daim gücləndirəcək, insan hüquq və azadlıqlarının pozulmasına, cinayətkarlığa qarşı mübarizədə barışmaz mövqe tutacaq, insan amili ilə bağlı hər bir məsələdə həssaslıq göstərəcək. Hərbi prokurorluğun əməkdaşları dövlətimizin əbədi yaşaması, xalqımızın rifahı naminə Heydər Əliyev ideallarına sədaqət nümayiş etdirəcək, qanunla üzərinə düşən bütün vəzifələri ləyaqətlə yerinə yetirəcəklər.

Tədbirdə xidməti fəaliyyətində fərqlənən bir qrup əməkdaş müxtəlif medallarla təltif olunub, həmçinin prokurorluğun veteranlarına hədiyyələr təqdim edilib.

**AZƏRTAC**

# Bakıda Xüsusi Olimpiya Hərəkatı Gənc Liderlərin 20-ci Qlobal Forumu işə başlayıb




**Sentyabrın 24-də Bakıda 45 ölkəni təmsil edən 220-dən çox qonağın qatıldığı Xüsusi Olimpiya Hərəkatı Gənc Liderlərin 20-ci Qlobal Forumunun açılış mərasimi keçirilib.**

AZƏRTAC xəbər verir ki, mərasimdə gənclər və idman naziri Azad Rəhimov, Beynəlxalq Xüsusi Olimpiya Hərəkatının sədri Timoti Şriver və digər rəsmi şəxslər iştirak ediblər.

Əvvəlcə Xüsusi Olimpiya Hərəkatına həsr olunmuş videoçarx nümayiş olunub.

Gənclər və idman naziri A.Rəhimov çıxış edərək bildirib ki, Azərbaycan dünyada idman ölkəsi və öz gənclərinə böyük dəyər verən ölkə kimi tanınmaqdan qürur duyur: "Azərbaycan qədim və zəngin tarixə, mədəniyyətə və ənənələrə malik olan ölkədir. 2018-ci il Xüsusi Olimpiya Hərəkatı Qlobal Gənc Liderlər Forumuna ev sahibliyi etməklə biz hər bir gəncimizə - əqli məhdudiyyətləri olan və olmayanlara verdiyimiz dəyəri nümayiş etdiririk. Bu Forum cəmiyyətdən təcrid olunduğunu hiss edən hər kəs üçün daha inklüziv dünyaya yeni körpü, ümid mayakı olacaq. Azərbaycan 25 ildir ki, Xüsusi Olimpiya Hərəkatının üzvüdür. Ölkəmizdə bu hərəkatın inkişafı üçün hər cür şərait yaradılıb. Təsadüfi deyil ki, biz Xüsusi Olimpiya Oyunlarında medallar qazanmışıq. Mən Azərbaycanda Xüsusi Olimpiya hərəkatına dəstək verən bütün qurumlara və Bakıya gələn qonaqlara təşəkkürümü bildirirəm".

Beynəlxalq Xüsusi Olimpiya Hərəkatının sədri T.Şriver isə deyib ki, burada iştirak edən gənc liderlər dünyada yaşayan 200 milyon əqli məhdudiyyəti olan insanı, ümumilikdə, hamı üçün inklüzivlik məqsədinə nail olmaq əzmində olan yeni nəsil liderləri təmsil edirlər.

Sonra Xüsusi Olimpiya Hərəkatının bayrağı səhnəyə gətirilib və hərəkatın məşəli nazir A.Rəhimova təqdim olunub.

Tədbirdə çıxış edənlər bildiriblər ki, əqli məhdudiyyəti olan və olmayan 120 gənc lider sentyabrın 24-dən 28-dək Bakıda keçirilən inklüzivliyi təşviq edən forumda iştirak edəcək. Xüsusi Olimpiya Gənc Liderlərinin 20-ci Forumu Xüsusi Olimpiya hərəkatının 50-ci ildönümünə həsr olunmuş əsas tədbirlərdən biridir.

Qeyd edək ki, forum zamanı dünyanın müxtəlif yerlərindən gəlmiş gənc liderlər əlavə olaraq daha yaşlı 100 liderlərin iştirakı ilə öz ölkələrində inklüziv cəmiyyətlər formalaşdırmaq məqsədilə qrup layihələrini hazırlayacaqlar. Gənc liderlər Bakı forumu başa çatdıqdan sonra öz ölkələrində həyata keçirəcəkləri layihələri tərtib edəcəklər. Bu layihələr Beynəlxalq Xüsusi Olimpiya Fondunun qrantları ilə dəstəklənəcək. Beş günlük Forum Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi, habelə Lions Clubs International, Stavros Niarchos Foundation və digər təşkilatlar tərəfindən dəstəklənir.

Xüsusi Olimpiya hərəkatının növbəti 50 il ərzində əsas məqsədlərindən biri dünya miqyasında Vahid Məktəblər adlanan məktəb proqramları vasitəsilə gənclərin cəlb olunmasını təşviq etmək və əqli məhdudiyyətləri olan və olmayan gəncləri inklüziv idman və liderlik vasitəsilə bir araya gətirən Vahid Nəsil proqramının hazırlanmasıdır.

Forum müddətində gənc liderlər öz ölkələrində, şəhərlərində, məktəblərində və icmalarında sosial inklüzivliyə nailolma sahəsində anlayışlarını inkişaf etdirəcək və genişləndirəcəklər. Onlar liderlik və sosial dəyişiklik sahəsində dünya miqyasında tanınmış ekspertlərdən yeni strategiyaları və fəaliyyətləri öyrənəcəklər. Bu isə Xüsusi Olimpiya Hərəkatı Vahid İdman Platformasından istifadə etməklə daha inklüziv dünyanı təşviq etməyə kömək edəcək.

Vətənlərinə qayıtdıqdan sonra gənc nümayəndə heyətləri müxtəlif inklüzivlik layihələrini təklif edəcəklər. Bu layihələr Xüsusi Olimpiya Hərəkatı Gənclər üçün İnnovasiya Qrantları təşəbbüsü vasitəsilə dəstəklənəcək. Nəticədə 8500-dən çox gənc bütün dünyada 250 yeni Vahid Məktəb və idman klubunda inklüziv idman və liderlik fəaliyyətinə cəlb olunacaq.

**AZƏRTAC**

# Bakıda ilk Beynəlxalq Elektron Ticarət Forumu keçirilir

**Sentyabrın 24-də Bakıda Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin təşəbbüsü, Avropa İttifaqının və BMT-nin Ticarət və İnkişaf üzrə Konfransının dəstəyi ilə Elektron Ticarət Forumu işə başlayıb.**

Nazirlikdən AZƏRTAC-a bildirilib ki, "Bakı Elektron Ticarət Forumu 2018" adlanan tədbirdə beynəlxalq təşkilatların, dövlət qurumlarının, ictimai təşkilatların nümayəndələri, mikro, kiçik və orta sahibkarlar, investorlar və startaplardan ibarət 300-dən çox yerli və xarici nümayəndə iştirak edir. Eyni zamanda, 20-dən çox ölkənin sahə üzrə mütəxəssisi, 10 beynəlxalq təşkilatın, 60-dan artıq e-ticarət və onlayn ödəniş platformalarının təmsilçiləri foruma qatılıb.

İki gün davam edəcək tədbirdə elektron ticarət sahəsində müxtəlif mövzuları əhatə edən 30-dan çox çıxış nəzərdə tutulub.

Forum çərçivəsində elektron ticarətin inkişafı üçün BMT-nin Ticarət və İnkişaf üzrə Konfransı tərəfindən müəyyən edilmiş 7 əsas istiqamət üzrə müxtəlif sessiyalar təşkil olunacaq.

Tədbirin açılış mərasimində Azərbaycanda elektron ticarət, elektron ödəniş və logistika xidmətləri, gömrük-vergi rüsumları, bu sahədə kiçik və orta sahibkarlığın inkişafı, elektron ticarət sahəsində startap layihələrinin genişləndirilməsi, həmçinin bu sahənin müxtəlif aspektlərinin inkişafı ilə bağlı dövlət orqanlarının, beynəlxalq inkişaf agentliklərinin, biznes strukturlarının səmərəli əməkdaşlığı müzakirə olunub.

Azərbaycanda və region ölkələrində elektron ticarətin inkişaf strategiyası, eyni zamanda, Avropa İttifaqının müəyyən etdiyi tələblər strategiyası üzrə təkliflər irəli sürülüb.



Məlumat verilib ki, hazırda Avropa İttifaqı ölkələrində elektron ticarətin payı 35 faiz təşkil edir. Dünyada isə ticarətin 10 faizi elektron ticarətin payına düşür. "Biznesdən-biznesə" modeli əsasında bu il dünya üzrə e-ticarət həcmi 3 trilyon dollara bərabər olub. Ölkəmizdə isə e-ticarətin inkişafı 10-15 faiz arasında dəyişir.

Qeyd edilib ki, son illər Azərbaycanda elektron ticarətin həcmi ildən-ilə artır ki, bu da iqtisadiyyatın şaxələndirilməsi, qeyri-neft sektorunun inkişafı, telekommunikasiya infrastrukturunun modernləşdirilməsi, eləcə də bank sektorunda elektron xidmətlərin səviyyəsinin genişləndirilməsi hesabına baş verir. Nəqliyyat və telekommunikasiya infrastrukturunun təkmilləşdirilməsi hesabına bu gün Azərbaycanın Tranzit Poçt Mərkəzinə (HUB) çevrilməsi vurğulanıb.

Elektron ticarətin inkişafı istiqamətində artıq istifadəyə verilən yeni nəsil şəxsiyyət vəsiqələrində "elektron imza" çiplərinin yerləşdirilməsinin də əhəmiyyəti qeyd edilib.

Forum çərçivəsində keçiriləcək sessiyalarda Avropa İttifaqı, Dünya Bankı, Ümumdünya Ticarət Təşkilatı, Avropa Yenidənqurma və İnkişaf Bankı, Beynəlxalq Ticarət Mərkəzi, Beynəlxalq Telekommunikasiya İttifaqı, Ümumdünya Poçt İttifaqı və digər beynəlxalq təşkilatların nümayəndələri və elektron ticarətin inkişafı üzrə tanınmış beynəlxalq ekspertlər çıxış edəcəklər.

Tədbirdə təşkil olunan sərgidə e-ticarətlə məşğul olan yerli və xarici mağazalar öz həllərini və məhsullarını nümayiş etdiriblər. Elektronika məhsullarının satışı ilə məşğul olan bir çox yerli şirkətlər də forum günlərində öz müştəriləri üçün endirim kampaniyasına başladıqlarını elan ediblər.

Ümumilikdə forum regionda elektron ticarətin inkişafı üçün müvafiq tövsiyələri nəzərdən keçirmək və praktik tətbiq imkanlarının müəyyən edilməsi üzrə beynəlxalq platforma rolunda çıxış edir.

**AZƏRTAC**

# "AzerTelecom" "Türkmentel 2018" sərgisində iştirak edəcək

**Azərbaycanı beynəlxalq internet şəbəkəsinə bağlayan magistral (backbone) internet provayder şirkəti "AzerTelecom" oktyabrın 10-12-də Türkmənistanın paytaxtı Aşqabadda keçiriləcək "Türkmentel 2018" XI Beynəlxalq Telekom və İT Sənayesi sərgisində təmsil olunacaq.**

Şirkətin sərgidə stendlə iştirak etməsinin məqsədi göstərdiyi telekommunikasiya xidmətlərini sərginin yerli və beynəlxalq iştirakçılarına təqdim etmək, onlarla fikir və təcrübə mübadiləsi aparmaq, texnoloji yeniliklərlə tanış olmaq, eləcə də şirkətin beynəlxalq əlaqələrinin daha da genişləndirməkdir.

Sayca 11-ci olan "Türkmentel 2018" Telekom və İT Sənayesi sərgisində bir çox yerli və xarici şirkətlərin telekommunikasiya və şəbəkə, informasiya texnologiyaları infrastrukturu və data mərkəz, telemetriya və ölçü vasitələri, rəqəmsal biznes həlləri, simsiz kommunikasiya, peşəkar audio və videoyazma avadanlıqları və s. sahələrdə məhsulları təqdim olunacaq.

Qeyd edək ki, "AzerTelecom" Azərbaycanın dinamik şəkildə inkişaf edən telekommunikasiya operatorudur. Şirkət 2008-ci ildə təsis edilib və əsas səhmdarı Azərbaycanın ilk mobil operatoru "Bakcell" şirkətidir. "AzerTelecom" ölkənin bütün əsas region və şəhərlərini əhatə edən şaxələnmiş və dayanıqlı fiber-optik kabel şəbəkəsinə sahibdir. Bu şəbəkə Naxçıvan Muxtar Respublikasını da əhatə edir. "AzerTelecom" şirkətinin beynəlxalq şəbəkəsi isə dünya üzrə bütün əsas telekommunikasiya hablarına birləşir. Şirkət internetin topdansatışı, ayrılmış kanal xidməti, mobil və stasionar telekommunikasiya şəbəkələrində informasiyanın daşınması, beynəlxalq tranzit, SİP telefoniya, FTTx (fiber optik xətt xidməti), data mərkəz xidmətləri, VSAT xidmətləri, Korporativ şəbəkə, Backbone xidmətləri, GSM üzərindən ayrılmış xətt, VPN (virtual şəxsi şəbəkə), VoİP xidməti, DDOS hücumundan müdafiə və digər xidmətlər təqdim edir. ■

# Azərbaycan ilə Monteneqro arasında hərbi əməkdaşlıq məsələləri müzakirə edilib

**Sentyabrın 24-də Azərbaycan Respublikasının müdafiə naziri, general-polkovnik Zakir Həsənov "ADEX 2018" üçüncü Azərbaycan Beynəlxalq müdafiə sərgisində iştirak etmək üçün ölkəmizə səfərə gələn Monteneqro Respublikasının müdafiə naziri Predraq Boşkoviçin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.**



Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, ölkələrimiz arasında ikitərəfli münasibətlərin inkişafından məmnunluğun ifadə edildiyi görüşdə vurğulanıb ki, Azərbaycan ilə Monteneqro arasında bir çox istiqamətlərdə, o cümlədən hərbi sahədə əməkdaşlığın genişləndirilməsi üçün yaxşı potensial mövcuddur.

Monteneqronun müdafiə nazirinin "ADEX 2018" üçüncü Azərbaycan Beynəlxalq müdafiə sərgisində iştirak etmək üçün nümayəndə heyəti ilə Bakıya səfərinin önəmini vurğulayan general-polkovnik Z.Həsənov bunun ölkələrimiz arasında hərbi sahədə əməkdaşlığın daha da inkişafına yeni təkan verəcəyini deyib.

Monteneqronun müdafiə naziri isə öz növbəsində dövlətlərimizin əlaqələrinin möhkəm dostluq münasibətlərinə əsaslandığını, ölkəsinin Azərbaycanın vacib tərəfdaşı olduğunu deyərək bu cür görüşlərin ikitərəfli münasibətlərin, eləcə də hərbi sahədə əməkdaşlığın genişləndirilməsi baxımından zəruriliyini qeyd edib.

Sonra tərəflər beynəlxalq və regional təhlükəsizlik məsələləri, ikitərəfli hərbi əməkdaşlığın inkişaf perspektivləri barədə geniş fikir mübadiləsi aparıblar.

**AZƏRTAC**

# Azərbaycan-Rusiya İşgüzar Şurasının iclası keçirilib

**Bakıda Azərbaycan-Rusiya İşgüzar Şurasının iclası keçirilib.**



Tədbirdə aidiyyəti dövlət qurumlarının nümayəndələri, qida, kənd təsərrüfatı, sənaye, tikinti və maliyyə sahəsində fəaliyyət göstərən 70-ə yaxın iş adamı və şirkət təmsilçiləri iştirak edib.

İqtisadiyyat Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Azərbaycan-Rusiya İşgüzar Şurasının sədri Səməd Qurbanov Azərbaycan-Rusiya əlaqələrinin müxtəlif sahələrdə, o cümlədən iqtisadi sahədə uğurla inkişaf etdiyini, Rusiyanın ölkəmizin əsas ticarət tərəfdaşlarından olduğunu vurğulayıb. Səməd Qurbanov qeyd edib ki, 2016-cı ildə yaradılan Azərbaycan-Rusiya İşgüzar Şurasının əsas məqsədi Azərbaycan və Rusiya arasında iqtisadi və investisiya qoyuluşu sahəsində əlaqələri, iş adamları arasında əməkdaşlığı daha da genişləndirməkdir. Bu məqsədlə Azərbaycan-Rusiya İşgüzar Şurası Rusiyanın analoji təşkilatı olan Rusiya-Azərbaycan İşgüzar Şurası ilə yaxından əməkdaşlıq edir və iş adamlarının iştirakı ilə işgüzar şuraların mütəmadi olaraq birgə iclasları keçirilir. Bununla belə, mövcud potensial nəzərə alınaraq ölkələrimiz arasında iqtisadi-ticarət əməkdaşlığının genişləndirilməsi üçün yeni mexanizmlərin tətbiqi istiqamətində tədbirlər davam etdiriləcək.

Sonra Azərbaycan-Rusiya İşgüzar Şurasının rəsmi internet saytı və loqosunun təqdimatı keçirilib.

Tədbirdə iş adamlarının çıxışları dinlənib, şuranın fəaliyyətinə dair sahibkarları maraqlandıran suallar cavablandırılıb.

**AZƏRTAC**

# "ADEX" sərgisinə göstərilən maraq Azərbaycanın regiondakı mühüm strateji əhəmiyyətini bir daha təsdiq edir






**Sentyabrın 25-dən 27-dək Bakıda keçiriləcək 3-cü "ADEX-2018" Azərbaycan Beynəlxalq Müdafiə sərgisi regionda ən böyük silah və hərbi texnika ekspozisiyalarından biri olmaqla yanaşı, müasir silah və avadanlıqların, o cümlədən Azərbaycanın müdafiə sənayesi kompleksinin gücü və qüdrətinin nümayişidir.**

AZƏRTAC xəbər verir ki, bu barədə sentyabrın 24-də sərginin açılışına həsr olunmuş mətbuat konfransında Azərbaycanın müdafiə sənayesi nazirinin müavini Yəhya Musayev məlumat verib.

Y.Musayev bildirib ki, sərgi Müdafiə Sənayesi Nazirliyinin təşəbbüsü, Müdafiə Nazirliyinin dəstəyi və "Caspian Event Organisers" (CEO) şirkətinin təşkilatçılığı ilə həyata keçirilir.

Diqqətə çatdırılıb ki, "ADEX-2018" sərgisi dünyanın 29 ölkəsini təmsil edən 224 şirkəti bir araya gətirib. Sərgidə Azərbaycan, Belarus, Çin, Fransa, İsrail, Pakistan, İran, Rusiya, Serbiya, Türkiyə və Ukraynanın aparıcı şirkətlərindən ibarət 11 stendin iştirakı nəzərdə tutulub. Sərginin iştirakçıları olan bir sıra ölkələr əvvəlki illərlə müqayisədə milli ekspozisiyalarının sahəsini böyüdüblər. Təmsil olunan şirkətlərin sayının çoxluğuna görə ilk dördlüyə Türkiyə (41 şirkət), Rusiya (25 şirkət), İsrail (14 şirkət) və Belarus (10 şirkət) daxildir. İştirakçıların coğrafiyası Estoniya, Hindistan və Qazaxıstan kimi ölkələrin hesabına genişlənib. Ümumilikdə, ziyarətçi şirkət və qurumlarla birlikdə sərginin coğrafiyası 44 ölkəni əhatə edir. "ADEX-2018" sərgisinin qeydiyyat sponsoru qismində isə Türkiyənin Müdafiə Sənayesi Nazirliyi çıxış edir.

Sərginin fəal iştirakçıları kimi Azərbaycan Respublikası Müdafiə Sənayesi Nazirliyi, eləcə də nazirliyin nəzdindəki istehsalat birlikləri və zavodlar, o cümlədən ANAMA agentliyi əsas rol oynayıb. Burada peşəkarlar ölkənin müdafiə sənayesinin yenilikləri, habelə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin mövcud və inkişaf edən potensialı ilə yaxından tanış ola bilmək şansı əldə edəcək. Bundan başqa, bu il Azərbaycandan "Caspian Ship Building Company", Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, AMEA-nın Yüksək Texnologiyalar Parkı (YTP), "Vitta" Elmi-texniki şirkəti və Hərbi Hava Qüvvələrinin silah və zirehli texnikaya texniki baxış üzrə servis mərkəzi sərgidə ilk dəfə çıxış edəcək.

Sərgiyə mətbuat nümayəndələri də böyük maraq göstərib. Belə ki, "ADEX-2018" sərgisinə 18 ölkədən 62 aparıcı beynəlxalq və yerli xüsusi media - jurnallar, saytlar, xəbər agentlikləri informasiya dəstəyi göstərib. Ümumilikdə, sərgi üçün 100-dən artıq mətbuat nümayəndəsi akkreditasiyadan keçib.

Bildirilib ki, Bakı Ekspo Mərkəzinin üç pavilyonunu və açıq meydançasını əhatə edən sərgi ərazi baxımından 10 faizlik artım nümayiş etdirib. Beləliklə, "ADEX-2018" sərgisində Hava Hücumundan Müdafiə (HHM) və Raket Əleyhinə Müdafiə (RƏM) sistemləri, hərbi gəmiqayırma, silah sistemlərinin hazırlanması və modernləşdirilməsi, hərbi-elmi tədqiqat, PUA sistemləri, robot-texniki kompleksləri, atıcı silahlar, döyüş sursatları və təchizatları, demilitarizasiya sistemləri, raket və artilleriya silahları, reaktiv yaylım atəşi sistemi (RYAS), optik-elektron və lazer texnikası, zirehli texnika, sualtı qayıqlar, Hərbi Dəniz Qüvvələrinin (HDQ) kibertəhlükəsizliyi, radioelektron müharibə və komandanlıq, idarəetmə, rabitə, kompüter, kəşfiyyat, müşahidə və məlumattoplama (C4İSR) sistemləri, hərbi dəmir yolu qüvvələrinin texnika və avadanlıqları, silahların istehsalı, təmiri və utilizasiyası üzrə texnologiya və avadanlıqlar, eləcə də digər sektorların sərgidə təqdimatı nəzərdə tutulub. "Aselsan", "CETC", "Damen", "MBDA", "Norinco", "İAİ", "Roketsan", "Rosoboronexport", "Thales" və digər şirkətlərin hərbi texnika nümayişi ilə çıxışı nəzərdə tutulub. Bu il digər sektorlar ilə yanaşı, hərbi-aviasiya sənayesi sektoru da geniş təqdim olunub və bu sektorda "MİQ" ("MİQ"), "TUSAŞ", "Leonardo", "OAK", "Motor Siç", "Rusiya Vertolyotları" və "Aeronautics Group" kimi dünyaca məşhur korporasiya və şirkətlər iştirak edir.

Sərginin açıq meydançası da ayrıca diqqətə layiqdir. Belə ki, burada müxtəlif dünya ölkələrinin şirkətləri təmsil olunur. Sərginin açıq meydançasında silahlar, hərbi və xüsusi təyinatlı texnika, maddi-texniki təchizat vasitələri, eləcə də ordunun gündəlik fəaliyyəti və hərbi qulluqçuların məişət təminatı üçün olan vasitələrdən ibarət statik ekspozisiyanın yerləşdirilməsi nəzərdə tutulub.

Bu il "ADEX-2018" sərgisi xarici nümayəndə heyətlərinin planlaşdırılmış səfərlərinin sayına görə keçən iki sərgidən daha yüksək göstərici əldə edib. Belə ki, sərgidə dünyanın 23 ölkəsini təmsil edən 34 yüksək səviyyəli rəsmi nümayəndə heyətinin ziyarəti nəzərdə tutulub. Misir, Qazaxıstan və Özbəkistan "ADEX" sərgisinə nümayəndələrini ilk dəfə göndərən ölkələr arasında yer alır. Sərgi çərçivəsində nümayəndə heyətlərinin rəhbərləri ilə Azərbaycanın nazirlik və strukturlarının təmsilçiləri arasında danışıqların aparılması nəzərdə tutulub. Bu danışıqlar zamanı ikitərəfli hərbi-texniki əməkdaşlıq perspektivlərinin müzakirəsi planlaşdırılmaqdadır. Bakı Ekspo Mərkəzinin üçüncü zalında ikitərəfli görüşlərin keçirilməsi üçün xüsusi danışıq zonası yaradılıb.

Beynəlxalq nümayəndə heyətləri və şirkətlər tərəfindən "ADEX" sərgisinə göstərilən maraq Azərbaycanın regionda mühüm strateji əhəmiyyətini bir daha təsdiq edib.

Ənənəvi olaraq, sərginin işgüzar proqramı çərçivəsində informativ və əyləncəli tematik tədbirlər, o cümlədən ölkənin müdafiə və təhlükəsizliyi üçün nəzərdə tutulmuş innovativ tədqiqat, məhsul və texnologiyalar sahəsində təqdimatların keçirilməsi planlaşdırılıb.

İştirakçıların böyük əksəriyyəti öz yeni məhsullarının nümayişi üçün bu il keçirilən sərgidən istifadə etmək niyyətində olduqlarını bəyan edib. Sərginin xüsusi platforma funksiyasını yerinə yetirməsi üçün yerli və xarici istehsal olan silah, hərbi texnika, yeni texnologiya və materiallar, habelə elm və sənayenin digər sahələrində əldə edilmiş nailiyyətlər, eləcə də bu nailiyyətlərin müdafiə sənayesi müəssisələrindəki istehsalat prosesində tətbiqinin fəal şəkildə təqdim olunması nəzərdə tutulub. Ukraynanın "ArtOS" artilleriya atəşinin avtomatlaşdırılmış idarəolunma kompleksi, "İHTAR Anti-Drone System" PUA əleyhinə sistem ("ASELSAN" şirkəti), taktiki qarşılıqlı hərəkət simulyatoru ("Zen TacSim" şirkəti), "VİTTA" pilotsuz uçuş aparatları, termobarik məhsul çeşidləri ("Arsenal" şirkəti), "Corvette" dəniz gəmiləri ("Dearsan" şirkəti), raket və raket kompleksləri ("Roketsan" şirkəti), trenajorlar və öyrədici oyunlar ("Simsoft" şirkəti), nəqliyyat vasitələri ("Yugoimport" şirkəti), 7,62x51mm çaplı "MG-M2" pulemyotu ("Arsenal" şirkəti), hərbi geyim və aksesuarlar ("Trud" şirkəti), kamuflyaj geyimi (Bakı Tikiş Fabriki), "Milli qayıq" konsepsiyası ("SBC Ltd." şirkəti) və digərləri bəyan edilmiş yeni məhsullar arasında yer alıb.

Bu il sərgi üçün əlavə tədbirlər proqramı da hazırlanıb və sərginin ikinci iş günü istehsalçı şirkətlərin nümayəndələri ilə sifarişçilər arasında ikitərəfli görüşlərin keçirilməsi nəzərdə tutulub.

Bu il Azərbaycan öz tarixinin şanlı hadisəsini - Azərbaycan Xalq Cümhuriyyətinin (AXC) qurulmasının 100-cü il dönümünü və Azərbaycan Silahlı Qüvvələrinin yaradılmasının 100 illik yubileyini təntənəli şəkildə qeyd edib. Azərbaycan Hərb Tarixi və Milli Azərbaycan Tarixi muzeylərinin sərgidə iştirakını xüsusi vurğulamaq lazımdır. Belə ki, sərgidə hər iki qurumun ölkənin bu şanlı tarixinə həsr olunmuş unikal silah və geyim ekspozisiyaları ilə çıxışı nəzərdə tutulub.

Sərgiyə girişin sentyabrın 25-26-da hərbi, hüquq-mühafizə və müdafiə sənayesi, habelə əlaqədar sənaye sahələrinin mütəxəssisləri, eləcə də ali hərbi məktəblərin tələbələri üçün açıq olması nəzərdə tutulub. Sentyabrın 27-də isə kommersiya strukturlarında fəaliyyət göstərən şəxslər öz şəxsiyyət vəsiqələrini təqdim etməklə sərgini ziyarət edə biləcəklər. Eyni zamanda, sərginin üçüncü günü ölkənin müdafiə qüdrəti ilə yaxından tanış olmaq və bununla da vətənpərvərlik ruhunun aşılanması məqsədilə azyaşlılar da valideynləri ilə birlikdə sərgini ziyarət edə biləcəklər. Bu istiqamətdə bütün ziyarətçilər veb-saytda qeydiyyatdan keçməlidirlər.

Beləliklə, "ADEX" sərgisi dünyanın silah bazarında ixrac üçün təklif olunan hərbi sənaye kompleksinin müxtəlif sahələri üzrə müasir müdafiə texnologiyaları, hərbi texnikanın ən son nümunələri ilə tanış olmaq imkanı yaradıb. "ADEX" sərgisi ən son silah nümunələrinin nümayiş olunması və beynəlxalq hərbi-texniki əməkdaşlıq sahəsində yeni müqavilələrin imzalanması üçün əla platformaya çevriləcək. İştirakçı şirkətlər barədə bütün məlumatların sərginin rəsmi kataloqunda dərc olunması nəzərdə tutulub. Şirkətlərin yeni məhsulları barədə xəbərlər, ixtiraçı və mütəxəssislərdən götürülmüş müsahibələrlə isə "ADEX-2018 Xəbərləri" qəzetinin xüsusi buraxılışında, sərginin www.adex.az veb-saytında və sosial şəbəkələrdə tanış olmaq mümkün olacaq.

**AZƏRTAC**

# Baş Prokurorluğun nümayəndə heyəti MDB dövlətləri Baş prokurorlarının Əlaqələndirmə Şurasının iclasında iştirak edib

**Sentyabrın 20-də Tacikistan Respublikasının paytaxtı Düşənbə şəhərində Müstəqil Dövlətlər Birliyi (MDB) İştirakçı Dövlətlərinin Baş Prokurorlarının Əlaqələndirmə Şurasının (BPƏŞ) 28-ci iclası keçirilib.**




Baş Prokurorluğun mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, MDB prokurorluq orqanları əməkdaşlarının iştirak etdikləri tədbirdə ölkəmizi baş prokurorun birinci müavini Rüstəm Usubovun rəhbərlik etdiyi nümayəndə heyəti təmsil edib.

Şuranın iclasında Azərbaycan nümayəndə heyətinin rəhbəri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən məhkəmə-hüquq islahatları çərçivəsində prokurorluq orqanlarının fəaliyyətinin və strukturunun təkmilləşdirilməsi istiqamətində aparılmış hərtərəfli və institusional tədbirlər, kadr potensialının gücləndirilməsi, yeni nəsil prokurorların formalaşdırılması və peşəkarlığının artırılması, habelə prokurorluğun maddi-texniki bazasının möhkəmləndirilməsi və işçilərinin sosial müdafiəsinin yaxşılaşdırılması ilə əlaqədar əldə olunmuş uğurlu nəticələr barədə ətraflı məlumat verərək, Azərbaycan Respublikası Baş Prokurorluğunun daxili işlər orqanlarının istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarət mövzusunda çıxış edib.

Tədbirdə "Sərxoş vəziyyətdə nəqliyyat vasitələrinin idarə edilməsinə qarşı mübarizə" (Belarus), "Prokuror nəzarətinin təkmilləşdirilməsində informasiya texnologiyalarının istifadəsi" (Qazaxıstan), "Korrupsiyaya qarşı mübarizə və qarşısının alınması məsələlərində prokurorluq orqanlarının əlaqələndirici rolu" (Qırğızıstan), "2016-2020-ci illər üçün ekstremizm və terrorizmlə mübarizədə milli strategiyanın həyata keçirilməsi praktikası" (Tacikistan) və sair mövzularda çıxışlar dinlənilib, faydalı fikir mübadiləsi aparılıb.

Yekunda Rusiya Federasiyasının baş prokuroru Yuri Çayka növbəti bir il müddətinə yenidən Şuranın sədri seçilib və təşkilatın 2019-cu ildəki iclasının Qırğızıstan Respublikasının paytaxtı Bişkek şəhərində keçirilməsi qərara alınıb.

Tədbir çərçivəsində nümayəndə heyəti Tacikistanın baş prokuroru Yusuf Rahmonla ikitərəfli görüş keçirib. Bu il avqustun 10-da Bakıda imzalanmış "Azərbaycan Respublikasının Baş Prokurorluğu və Tacikistan Respublikasının Baş Prokurorluğu arasında Əməkdaşlıq haqqında Saziş"də göstərilən müddəaların həyata keçirilməsi məqsədilə bu ilin noyabr-dekabr aylarında Tacikistan nümayəndə heyəti təcrübə mübadiləsi məqsədilə Azərbaycana səfərə dəvət olunub.

**AZƏRTAC**

# BMT-nin Əhali Fondu ilə Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi arasında əməkdaşlıq məsələləri müzakirə olunub

**Sentyabrın 24-də Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Hicran Hüseynova BMT-nin Əhali Fondunun Şərqi Avropa və Orta Asiya üzrə regional direktoru Alanna Armitage ilə görüşüb.**



AZƏRTAC xəbər verir ki, görüşdə Dövlət Komitəsi ilə BMT-nin Əhali Fondu arasında əməkdaşlıqla bağlı məsələlər müzakirə olunub. Hicran Hüseynova Alanna Armitageni Fondun Şərqi Avropa və Orta Asiya üzrə regional direktoru vəzifəsinə təyin olunması münasibətilə təbrik edib. "BMT-nin Əhali Fondu ilə Azərbaycanın dövlət qurumları, xüsusilə də Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi arasında fəal əməkdaşlıq mövcuddur. Biz artıq bir-birimizi güclü tərəfdaş hesab edirik. Azərbaycan sürətlə inkişaf edən ölkədir. Azərbaycan Prezidenti İlham Əliyev ölkəmizdə qadınların hüquqlarının müdafiəsinə, hüquqi bazanın möhkəmləndirilməsinə, qadın sahibkarlığının inkişafına böyük diqqət göstərir. Birinci vitse-prezident Mehriban Əliyevanın səmərəli fəaliyyəti nəticəsində Azərbaycan qadınlarının ictimai-siyasi həyatda fəal iştiraka marağı artıb. Mehriban xanımın təşəbbüsü ilə qadın hüquqlarının müdafiəsi istiqamətində aparılan işlər xüsusilə qeyd olunmalıdır. Qadın və uşaqların məişət zorakılığından müdafiəsinə yönəlmiş "Məişət zorakılığı haqqında" Qanunun qəbul olunmasında Mehriban xanımın böyük rolu olub", - deyə Hicran Hüseynova bildirib.

Qonaqlara Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi barədə məlumat verən Hicran Hüseynova ölkəmizdə bir milyondan çox qaçqın və məcburi köçkünün olduğunu bildirib. Qeyd edib ki, onların yenidən ailəyə, cəmiyyətə inteqrasiyası üçün reabilitasiya işlərinin aparılması çox önəmlidir. Qaçqın və məcburi köçkünlərin sosial müdafiəsi, onların mənzil-məişət şəraitlərinin yaxşılaşdırılması Azərbaycan Hökumətinin qarşısında duran əsas vəzifələrdən biridir. Ötən müddət ərzində onlarla yeni qəsəbə salınıb, məktəblər, uşaq bağçaları, tibb məntəqələri, mədəniyyət mərkəzləri tikilib, müasir tələblər əsasında infrastruktur yaradılıb. Onların problemləri daim ölkə rəhbərliyinin diqqətindədir.

Hicran Hüseynova bildirib ki, Azərbaycanda BMT-nin Əhali Fondu ilə əməkdaşlıq şəraitində qadın hüquqlarının müdafiəsi, məişət zorakılığı ilə mübarizə, gender bərabərliyinin təmin edilməsi sahəsində vacib layihələr həyata keçirilib və bu işlər hazırda da davam etdirilir. Bugünkü görüşün əsas məqsədi də bu əməkdaşlığın səviyyəsinin daha da yüksək səviyyəyə çatdırılmasıdır.

Azərbaycanda olmaqdan məmnunluq ifadə edən BMT-nin Əhali Fondunun Şərqi Avropa və Orta Asiya üzrə regional direktoru Alanna Armitage həyata keçirilən layihələrin çox müsbət nəticələr verdiyini qeyd edib. O, əməkdaşlığın daha da genişləndirilməsi istiqamətində işlərin görülməsinə ehtiyac olduğunu vurğulayıb.

Alanna Armitage qadın hüquqlarının müdafiəsi sahəsində Azərbaycan ilə əməkdaşlığın gücləndirilməsi və təcrübə mübadiləsinin aparılması üzrə birgə layihələrin reallaşdırılmasında maraqlı olduğunu bildirib.

Görüşdə ikitərəfli əməkdaşlığın genişləndirilməsi və həyata keçirilən layihələrdə effektivliyin artırılması məqsədilə müzakirələr aparılıb.

**AZƏRTAC**

*XİN:*

# Bir qrup əcnəbi həkimin işğal olunmuş ərazilərimizə səfərinə dair yayılan məlumat araşdırılır

Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin mətbuat xidməti kütləvi informasiya vasitələrində Cənubi Kaliforniyanın Adventist Sağlamlıq Təşkilatından olan bir qrup həkimin cari il sentyabrın 22-26-da ölkəmizin işğal olunmuş ərazilərinə səfəri ilə bağlı yayılan məlumata münasibət bildirib.

AZƏRTAC xəbər verir ki, bununla bağlı açıqlamada məsələnin Xarici İşlər Nazirliyi tərəfindən araşdırıldığı və aidiyyəti diplomatik nümayəndəliklərimizə müvafiq tapşırıqlar verildiyi qeyd edilir.

**AZƏRTAC**

# Strateji yol xəritələri və Azərbaycan Milli Elmlər Akademiyası

***Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən "Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi"nin icrası ilə bağlı 2017-ci il üçün nəzərdə tutulan tədbirlər uğurla həyata keçirildi. Strateji yol xəritələrinin uğurlu icrası makroiqtisadi sabitlik, qeyri-neft sektorunun davamlı inkişafı və ixracı potensialının artımı, ticarət və fiskal balansın yaxşılaşması, əlverişli biznes mühiti və sərmayə cəlbi, infrastrukturun davamlı təkmilləşdirilməsi və əhalinin sosial rifahı, habelə ölkənin beynəlxalq mövqelərinin güclənməsinə xidmət edir.***

***2017-ci ilin dərin və sistemli islahatlarında, 2018-ci ilin isə yüksək templi iqtisadi inkişaf ili olmasında Strateji yol xəritələrinin xüsusi önəmi vardır. Azərbaycanın sosial-iqtisadi inkişafının aktual məsələlərini hər zaman diqqət mərkəzində saxlayan "Respublika" qəzeti mütəmadi olaraq dövlət başçısı cənab İlham Əliyevin rəhbərliyi ilə uğurla həyata keçirilən Strateji yol xəritələrinin icrası ilə bağlı silsilə yazılar dərc edilməsi barədə təşəbbüs göstərmişdir. Bu istiqamətdə Azərbaycan Milli Elmlər Akademiyasında görülmüş işlər barədə məqaləni oxucularımızın diqqətinə təqdim edirik.***



**Akif ƏLİZADƏ,**
**AMEA prezidenti, akademik.**

*(əvvəli 23 sentyabr tarixli sayımızda)*

Bütövlükdə, AMEA-nın 12 elmi-tədqiqat institutunda respublikanın müxtəlif universitetlərinin baza kafedraları və laboratoriyaları, o cümlədən Neft-Kimya Prosesləri İnstitutunda Neft və Sənaye Universitetinin "Neftin, qazın kimyası və emalının texnologiyası", Aşqarlar Kimyası İnstitutunda Bakı Dövlət Universitetinin (BDU) "Neft kimyası və neft texnologiyası" , Geologiya və Geofizika İnstitutunda BDU-nun "Seysmologiya və Yer təkinin fizikası", İdarəetmə Sistemləri İnstitutunda Memarlıq və İnşaat Universitetinin "İnformasiya texnologiyaları və sistemləri", Kataliz və Qeyi-üzvi Kimya İnstitutunda BDU-nun "Fiziki və kolloid kimya" və "Ümumi və qeyri-üzvi kimya", Genetik Ehtiyatlar İnstitutunda BDU-nun "Genetika və Təkamül", Aqrar Universitetinin baza, Dendrologiya İnstitutunda BDU-nun "Botanika" və Odlar Yurdu Universitetinin "Biologiya və ekologiya" kafedraları, Polimer Materialları İnstitutunda Sumqayıt Dövlət Universitetinin Elm və Tədris Mərkəzi, Coğrafiya İnstitutunda BDU-nun Coğrafiya fakültəsinin Elm və Tədqiqat Mərkəzi, AMEA-nın Gəncə Bölməsində Gəncə Dövlət Universitetinin, Azərbaycan Texnologiya Universitetinin, Azərbaycan Dövlət Aqrar Universitetinin kafedraları fəaliyyət göstərir. Bu yaxınlarda Fizika İnstitutu, Şamaxı Astrofizika Rəsədxanası, Milli Aviasiya Akademiyası və "Azərkosmos"un birgə "Kosmos və yerətrafı kosmik fəzanın fizikası" birgə laboratoriyasının yaradılması haqqında qərar qəbul edilmişdir.

2015-ci ildə akademiyada gələcəyin elmi kadrlarının hazırlanmasının ilkin pilləsi olan magistratura yaradılarkən 7 ixtisas üzrə cəmi 19 magistrant qəbul edildiyi halda, 2017/2018-ci tədris ilində magistraturaya 12 ixtisas üzrə 67 magistrant qəbul edilmişdir. Hazırda Akademiyada böyük müsabiqə yolu ilə seçilmiş 123 magistrantın hər biri elmi-tədqiqat institutlarında işə götürülmüş, bəziləri qrant layihələrinə də cəlb olunmuşlar. Magistrantların iş şəraitini yaxşılaşdırmaq üçün onlara xüsusi otaqlar ayrılmış, hər biri fərdi kompüterlə təmin olunmuş, onlara AMEA-nın Mərkəzi Elmi Kitabxanasının zəngin fondlarından istifadə etmək imkanı yaradılmışdır. Magistrlərin stimullaşdırılması məqsədi ilə keçirilən "Magistr-2018" müsabiqəsində 47 magistrant iştirak edib. Qaliblərin müəyyən olunmasında Ekspert Komissiyası bir sıra meyarları, o cümlədən tələbələrin magistraturaya qəbul imtahanında topladığı balları, onların imtahan sessiyalarında qazandıqları ümumi müvəffəqiyyət göstəricilərini, yerli və xarici jurnallarda nəşr olunmuş elmi məqalələrini, təcrübəkeçməni, konfrans və ictimai tədbirlərdə iştirakını nəzərə alıb.

2018-ci ildə fəlsəfə doktoru proqramı üzrə əyani doktoranturaya 115 plan yerinə 183 nəfər ərizə verib: Elmlər doktoru proqramı üzrə həm əyani, həm də qiyabi doktoranturaya ümumilikdə 39 plan yerinə 47 nəfər ərizə təqdim edib". Fəlsəfə doktoru proqramı üzrə dissertanturaya 181 plan yerinə 288 nəfər, elmlər doktoru proqramı üzrə dissertanturaya isə 110 plan yerinə 141 nəfər tərəfindən ərizə təqdim olunub. AMEA-nın 26 həqiqi üzvü, 82 elmlər doktoru və 134 fəlsəfə doktoru magistraturada tədris prosesinə cəlb olunmuşdur. Sevindirici haldır ki, 2017-ci ildə AMEA-nın ilk magistratura məzunları elmi-tədqiqat və elmi-pedaqoji təcrübələrini uğurla başa vuraraq "Molekulyar biologiya", "Kimyəvi kinetika və kataliz" və Azərbaycan elmi üçün mühüm digər ixtisaslar üzrə dissertasiya işlərini müdafiə etmiş və öz karyeralarını elm sahəsində, Akademiyada davam etdirmək qərarına gəlmişlər.

Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Milli Elmlər Akademiyasının gənc alimlərinin Avropanın elmi mərkəzlərində doktorantura təhsilinin maliyyələşdirilməsi haqqında" sərəncamına uyğun olaraq son illərdə AMEA-nın xeyli gənc alimi dünyanın müxtəlif elmi mərkəzlərinə göndərilmiş və bu proses hazırda da davam etdirilir. Azərbaycan Milli Elmlər Akademiyası həm də Avropa Komissiyasının "Erasmus+" proqramı çərçivəsində həyata keçirilən "Azərbaycanda doktorantura təhsilini təkmilləşdirilməsi, struktur, məzmun və ideya baxımından zənginləşdirilməsi və Avropa ali təhsil tələblərinə uyğun yenidən qurulması və inkişafı" ("Nizami") layihəsində fəal iştirak edir. 2017-ci ildə akademiyada fəlsəfə doktoru proqramı üzrə 158 nəfər, elmlər doktoru proqramı üzrə 34 nəfər dissertasiya işlərini müdafiə etmişlər. Yüksəkixtisaslı kadrların hazırlanmasının ən yüksək səviyyəsi olan AMEA doktoranturasında hazırda fəlsəfə doktoru proqramı üzrə 1155 nəfər, elmlər doktoru proqramı üzrə 649 nəfər təhsil alır.

2017-ci ildə AMEA-da ilk dəfə 50 yaşa çatmamış elmlər doktorları arasından seçilən "AMEA professoru" elmi adı təsis edilmiş, bu ada layiq görülən ilk 12 professorun onu fizika, riyaziyyat, biologiya və tibb sahələrində çalışan alimlər olmuşlar. Gənc alimlərin elmi fəaliyyətini stimullaşdırmaq məqsədi ilə AMEA prezidenti 35 yaşına qədər elmlər doktorluğu dissertasiyasını müdafiə etmiş alimlərə 5 min manat həcmində birdəfəlik mükafat verilməsini nəzərdə tutan sərəncam imzalamışdır.

İnsan kapitalının inkişafının stimullaşdırılması və innovasiya fəaliyyətinin təşviq edilməsi vəzifələri AMEA-da diqqət mərkəzində saxlanılmış, AMEA-nın Strateji Yol Xəritələrinin icrası üzrə Tədbirlər Planında bu istiqamətdə nəzərdə tutulmuş bir sıra tədbirlər həyata keçirilmişdir. Akademiya əməkdaşlarının elmi-texniki yaradıcılığını və innovativ fəaliyyətini stimullaşdırmaq, onların öz əməklərinin nəticəsinə marağını yüksəltmək üçün 2017-ci il martından etibarən müəyyən edilmiş yeni qaydalara əsasən AMEA əməkdaşlarının müəllifi olduğu ixtira, faydalı model və sənaye nümunələrinə patentlərin alınması ilə bağlı rüsumların AMEA tərəfindən ödənilməsi, habelə, elmi ixtiranın kommersiyalaşdırılmasından əldə edilən xalis gəlirin 25%-nin ixtira müəllifinə verilməsi nəzərdə tutulmuşdur.

AMEA alim və mütəxəssisləri "İxtiraçılıq sahəsində nailiyyətlərə görə IV Respublika Müsabiqəsi"ndə geniş iştirak etmişlər. Görülən tədbirlərin nəticəsi kimi akademiya institutlarında innovativ fəallıq artmış, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Elmin İnkişafı Fondunun, yerli və beynəlxalq elmi fondların qrantlarını almaq üçün müsabiqələrdə iştirak edənlərin sayı artmışdır. Məsələn, Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR) Elm Fondunun neft, qaz və neft-kimya sənayesi ilə bağlı innovativ elmi araşdırmaları inkişaf etdirmək məqsədilə 2017-ci ilin sentyabrında elan etdiyi müsabiqəyə AMEA-dan143 layihə təqdim olunmuş, bunlardan 98-i texniki ekspertizanı keçərək müsabiqəyə buraxılmış, 35-i müsabiqənin qalibi olmuşdur.

AMEA Neft Qaz İnstitutu tərəfindən "Azərbaycanda metanol və karbamid gübrəsi istehsalında xammal kimi istifadə edilən təbii metan qazı ($CH_4$) əvəzinə iri sənaye obyektlərindən atmosferə atılan karbon qazının ($CO_2$) tutularaq yığılması və istifadə edilməsinin elmi-texniki, iqtisadi əsaslarının işlənməsi və təkliflərin hazırlanması" layihəsi təklif edilmişdir. Ölkəyə külli miqdarda vəsaitə qənaət etməyə imkan verəcək layihənin icrasının həm də böyük ekoloji əhəmiyyəti var. Layihə çərçivəsində iri sənaye mənbələrindən atmosferə atılan karbon dioksidin ($CO_2$) tullantı mənbələrinin təyin edilməsi və istifadə sahəsindən asılı olaraq nəql olunma sxeminin işlənməsi və s. tədbirlərin həyata keçirilməsində pilotsuz uçan aparatlardan istifadə vacib hesab edilib və bu aparatların alınması üçün AMEA "Yüksək Texnologiyalar Parkı" MMC ilə müvafiq alqı-satqı müqaviləsi bağlanmışdır.

Qarşıdakı dövrdə AMEA elmi müəssisələrinin ölkədə milli innovasiya sisteminin qurulmasında fəal iştirakının təmin olunması, ixtiraçılıq fəallığının təşviq edilməsi, ixtira və işləmələrin real iqtisadi səmərəsinin yüksəldilməsi istiqamətində tədbirlər davam etdiriləcəkdir.

Ətraf mühitin və biomüxtəlifliyin qorunmasına, ekoloji təmiz məhsul istehsalının təşkilinə, ölkənin aqrar sektorunda yığılmış problemlərin həllinə yönəlmiş **"Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair strateji yol xəritəsi"ndə** Azərbaycan alimləri qarşısında qoyulmuş vəzifələrdən irəli gələn tədqiqatlar əsasən akademiyanın Biologiya və Tibb Elmləri bölməsinə daxil olan institutlarda aparılır.

Botanika İnstitutunun Ekoloji Təmiz Kənd Təsərrüfatı üzrə Regional Təcrübə və Resurs Mərkəzində "Şəki-Zaqatala regionunda aqroekosistemlərin keyfiyyətinin yaxşılaşdırılması və səmərəli istifadəsini təmin edən texnologiyaların hazırlanması, aqroekosistemlərin effektivliyinin idarə olunması" mövzusu üzrə indiyə qədər Azərbaycanda tətbiq olunmayan 4 yeni texnologiya: ekoloji təmiz kənd təsərrüfatında minimum becərmələr texnologiyası, dənli bitkilərin istehsalında zolaqlı səpin texnologiyası, qarışıq səpinlər texnologiyası və fitonsidli bitkilərdən hazırlanmış həlim və cövhərlərin xəstəlik və zərərvericilərə qarşı təsirinin tətbiqi üzrə elmi təcrübələr aparılmış və maraqlı nəticələr əldə edilmişdir.

Azərbaycanın itməkdə olan müxtəlif bitki növlərinin müəyyən olunması, onların toxumlarının bərpası və gələcək nəsillər üçün qorunub saxlanılması üçün AMEA institutlarında əhəmiyyətli tədbirlər görülür. 2018-ci ilin yanvarında Genetik Ehtiyatlar İnstitutunda Cənubi Qafqaz və Mərkəzi Asiya regionunda ilk dəfə orta (20-30 il) və uzunmüddətli saxlama (50-100 il) şəraiti olan Milli Genetik Bank yaradılıb. "Mədəni bitkilərin genetik ehtiyatlarının mühafizəsi və səmərəli istifadəsi haqqında" Azərbaycan Respublikası Qanununa və Nazirlər Kabinetinin Qərarına əsasən, Milli Genetik Banka mühafizə olunan dövlət təbiət obyekti statusu verilib və bank ölkəmizin milli sərvəti elan edilib. Respublikanın regionlar üzrə zəngin bitki müxtəlifliyinin və itmək təhlükəsində olan növlərin müvafiq aqroiqlim zonalarında mühafizəsini və səmərəli istifadəsini təmin etmək üçün institutun Şəki və Qubada elmi-tədqiqat bazaları, Lerikdə dayaq məntəqəsi yaradılmışdır. Bütövlükdə bu gün Milli Genbankda və genefond bağlarında əsasən yerli genetik müxtəlifliyin 405 cinsə, 1200 növünə aid 15000-ə qədər nümunəsi, o cümlədən mədəni bitkilərin yabanı əcdadlarına aid 2200-dən çox, xalq seleksiyası sort və formalarına aid 2500-ə qədər qiymətli nümunə toplanmış, onların etibarlı mühafizəsi təşkil edilmişdir. Saxlanılan yerli və introduksiya olunmuş 1000-ə qədər nümunənin genetik pasportlaşdırılması həyata keçirilmişdir. Bu nümunələr müasir və sınanmış metodlardan istifadə edilməklə qiymətləndirilir, yüksəkməhsuldar və keyfiyyətli, biotik və abiotik stress amillərinə davamlı donor formalar seçilərək seleksiya proqramlarında səmərəli istifadə olunur.

İnstitutda yabanı və mədəni bitkilərin biomüxtəlifliyinin qorunması məqsədilə sistemli monitorinqlərin aparılması, toxum və herbari materiallarının toplanması və mühafizəsi, qədim yerli sortların genefondunun yaradılması və pasportlasdırılması, həmçinin müvafiq məlumat bazalarının yaradılması sahəsində bir sıra işlər görülmüşdür. Cari ildə İsmayıllı rayonu ərazisində 7 yerli alma və 5 armud sortunun becərilmə ünvanları müəyyənləşdirilmiş, Şəki rayonu ərazisində yabanı üzüm populyasiyalarında mövcud olan 9 formanın coğrafi koordinatları təyin olunmuş və ampeloqrafik əlamətləri təsvir edilmişdir. Üzümün 5 ədəd yerli xalq seleksiyası sortu (Qızıl üzüm, Kişmiş üzüm, Qaraşirə üzüm, Ağsaçaq üzüm, Toxmax üzüm) aşkar edilmiş, 4 xalq seleksiyası sortunun (Tirəki üzüm, Həzəri üzüm, Dəvəgözü üzüm, Gəlinbarmağı) isə yayıldığı areal barədə məlumat toplanmışdır.

2017-ci ildə institutda əvvəllər ölkə ərazisində geniş şəkildə becərilən Ağdaş-3 və AP-317 pambıq sortlarının bərpası aparılmış və ilkin toxumçuluğu bərpa edilmişdir. Genetik Ehtiyatlar İnstitutunda bu il 4 bitki sortu respublikada becərilmək üçün rayonlaşdırılmış və müvafiq patentlər alınmış, Milli Aviasiya Akademiyası ilə birgə "Kənd təsərrüfatı bitkilərinin toxumlarının səpinqabağı ozonlaşdırılması üsulu" adlı ixtira patentləşdirilmiş və respublikanın bəzi rayonlarında tətbiq edilmişdir.

Botanika İnstitutu ilə Minilliyin Toxum Bankı (Böyük Britaniya) arasında imzalanmış memorandumlara əsasən, "Qafqaz florasının mühafizəsi" proqramı çərçivəsində "Azərbaycanın yabanı bitki növlərinin toxumlarının toplanması" layihəsi həyata keçirilir. Çoxsaylı monitorinqlər zamanı toplanmış nadir və endem bitkilərə aid toxum kolleksiyası mühafizə məqsədilə həm Minilliyin Toxum Bankında, həm də Botanika İnstitutunda yeni yaradılmış Toxum bankında saxlanılır. İnstitutun Herbari fondundakı 11 min herbari nüməsi də rəqəmsallaşdırılaraq virtual məlumat bazasına daxil edilmişdir. Azərbaycanın nadir və nəsli kəsilməkdə olan 63 bitki növünün 218 senopopulyasiyası barədə məlumat, habelə Azərbaycanın 1560 dərman bitkisi haqqında 26 parametr üzrə məlumat da həmin bazaya daxil edilib. İnstitut, həmçinin Biomüxtəliflik Konvensiyasının Bitkilərin Qorunmasının Qlobal Strategiyası, Hədəf 1 (GSPC Target 1) "Məlum bitki növlərinin elektron floristik siyahısı" ilə bağlı "Onlayn Dünya Florası" (World Flora Online) adlı beynəlxalq layihənin iştirakçısıdır.

Molekulyar Biologiya və Biotexnologiyalar İnstitutunda aborigen Şirvanşahı üzüm sortunun çoxaldılması həyata keçirilmiş və bu sortun məhv olmuş polulyasiyasının bərpasını təmin edən kolleksiya yaradılmışdır. Alınmış eksperimental material in *vitro* şəraitində biotexnoloji çoxaldılma texnologiyasının tətbiqi ilə tədqiqatlarda istifadə edilir.

2017-ci ildə AMEA institutlarında torpaqların eroziyaya uğramasının, suvarılan əkin sahələrinin şoranlaşmasının qarşısının alınması və münbitliyinin artırılması istiqamətində tədqiqatlar aparılmış, iqlim dəyişikliyi şəraitində yarımquraq ərazilərdə abiotik amillərin qida əhəmiyyətli yem bitkilərinin inkişafına təsiri qiymətləndirilmişdir. AMEA Torpaqşünaslıq və Aqrokimya İnstitutunun Kürdəmir dayaq məntəqəsində orta şorlaşmış ağır gilli torpaqlarda 16 qida əhəmiyyətli yem bitkisinin (kinoya, sorqo, amarant, darı və s.) abiotik stress şəraitində inkişaf dinamikası öyrənilmişdir. Bu istiqamətdə tədqiqatların davam etdirilməsi Kür-Araz ovalığında yeni sortların seçilməsi, əkinçiliyə daxil edilməsi və şorlaşmış ərazilərin münbitliyinin fitobərpa edilməsinə imkan verəcəkdir.

Azərbaycanın Kür-Araz ovalığında olan digər torpaqlar kimi, Salyan düzünün və xüsusilə Neftçala rayonunun torpaqlarının münbitlik göstəriciləri çox aşağıdır. Torpaqşünaslıq və Aqrokimya İnstitutunun elmi işçiləri müəyyən ediblər ki, Neftçala rayonu ərazisində, Kür çayının deltasında illərlə toplanmış milyon tonlarla lilin zəngin mineraloji tərkibi var və üzvi gübrələrin, bakteriyaların və Kür lilinin qarışığından alınan zəngin bitki qida maddəsi rayonların qüvvədən düşmüş torpaqlarının münbitliyinin artırılmasında geniş istifadə oluna bilər. Təəssüf ki, bu istiqamətdə görülən işlər, son mərhələdə bakteriyaların əldə olunmasında çətinliklər yarandığından yarımçıq dayandırılmışdır. Müvafiq vəsait olarsa, Neftçala rayonunda böyük həcmdə üzvi gübrə istehsal edə biləcək zavodun inşası, həmin gübrənin geniş tətbiqi ilə torpaqların gücləndirilməsi və ekoloji təmiz kənd təsərrüfatı məhsullarının alınması perspektivlidir.

**"Azərbaycan Respublikasında ağır sənaye və maşınqayırmanın inkişafına dair strateji yol xəritəsi"ndə** elmi-tədqiqat təşkilatları ilə müəssisələr arasında əlaqələrin gücləndirilməsi tapşırığı AMEA qarşısında həm yeni vəzifələr qoymuş, həm də yeni imkanlar açmışdır.

2018-ci ilin martında Azərbaycan Milli Elmlər Akademiyası elmi-tədqiqat proqramlarının respublika müsabiqəsinin nəticələrini açıqlamışdır. Aktual elmi tədqiqatların akademiyanın özü tərəfindən maliyyələşdirilməsi forması olan müsabiqənin qalibləri arasında "Neftlərin səciyyələndirilməsinin innovativ fiziki üsulları", "Zərrəcik detektorları və plazmonika üçün subdalğa qəfəsli nazik təbəqəli sistemlər", "Polimer əsaslı nanogellərin alınması və onların dərman preparatlarının daşıyıcısı kimi xərçəng xəstəliklərinin müalicəsində tətbiqi", "Yeni fizioloji aktiv maddələrin sintezi və tədqiqi", "Cənubi Xəzər Çökəkliyinin dərində yatan (7-10 km) süxur-flüid sistemlərinin modelləri" kimi ölkə iqtisadiyyatının perspektivləri üçün əhəmiyyətli mövzular var.

Geologiya və Geofizika İnstitutunun alimləri tərəfindən ölkədə fosforit (apatit) yataqlarında fosforun lantan, samariy, avropium kimi bəzi nadir yer elementlərinin kifayət qədər təzahürlərinin olması müəyyən edilmiş, nadir yer metallarına dünya bazarında olan perspektiv tələbat öyrənilmişdir. Ekspertlər tərəfindən 2020-ci ilə dünya bazarında bu metallara tələbatın 1,5-2 dəfə artaraq illik 185-200 min tona çatacağı, orta və ağır lantanoidlərin qıtlığı nəticəsində qiymətlərinin azı 20-25% yüksələcəyi proqnozlaşdırılır. Göstərilən metalların istifadə dairəsi durmadan genişlənir. Məsələn, lantan elektron-vakuum lampalarının, elektron mikroskopların, yüksək temperaturlara və korroziyaya davamlı birləşmələrin, enerjini yığıb saxlayan sistemlərin, o cümlədən elektrik avtomobillərinin akkumulyatorlarının (bir elektrik a/m akkumulyatoruna 15-25 kq. lantan) istehsalında istifadə olunur. Maye şəklində lantan əridilmiş urandan plutonium alınması üçün zəruridir, polada əlavə edilməsi isə müxtəlif modifikasiyalarda metalın plastikliyini təmin edir. Digər element - avropium nüvə və atom-hidrogen energetikasında, bərk cisim və maye lazerlərin istehsalında, inteqral mikroelektronikada, lüminoforlarda, tibbi diaqnostika və radioizotop enerji mənbələrində geniş istifadə olunur.

Dünya bazarlarında yüksək qiymətə satılan bu metalların (2017-ci il qiymətləri: lantan-44 USD/kq., samariy-156 USD/kq., europiy-3823 USD/kq. və s.) ehtiyatlarının dəqiq qiymətləndirilməsi, təbii fosforit birləşmələrindən alınması üsullarının, yataqların istismar texnologiyasının işlənməsi üçün 2018-2020-ci illər ərzində kimyəvi reaktivlərin, cihaz və avadanlıqların alınmasına, ekspedisiyaların təşkilinə və xarici ezamiyyətlərə ehtiyac vardır.

*(davamı növbəti saylarımızda)*

# Prokurorluq hüquq sistemində mühüm dövlət orqanıdır

**Prokurorluq orqanlarının bütün əməkdaşları, veteranlarımız, bütövlükdə, ölkənin hüquq ictimaiyyəti prokurorluq işçilərinin peşə bayramını və Azərbaycan Respublikası Prokurorluğunun yaradılmasının 100-cü ildönümünü yüksək əhval-ruhiyyə ilə qarşılayırlar. Ümummilli lider Heydər Əliyevin dövlətçilik iradəsilə gerçəkləşən bu reallıq Azərbaycan Prokurorluğunun cəmiyyətdə və dövlət təsisatları sırasında tutduğu yeri müəyyənləşdirməklə, bu orqana göstərilən yüksək qayğının və hərtərəfli dəstəyin təzahürü kimi hər bir əməkdaşımızda böyük qürur hissi doğurur.**

Məlum olduğu kimi, 1918-ci il mayın 28-də Şərqdə ilk müstəqil cümhuriyyət - Azərbaycan Demokratik Cümhuriyyəti yaradıldı və Azərbaycanın istiqlal bəyannaməsi qəbul edildi. Bu hökumətdə ədliyyə naziri Xəlilbəy Hacıbaba oğlu Xasməmmədov olmuşdur. Xalq Cümhuriyyətinin Nazirlər Şurasının 1 oktyabr 1918-ci il tarixli qərarı ilə Bakı Dairə Məhkəməsinin tərkibində prokurorluq orqanı fəaliyyətə başlamışdır. Bundan sonrakı dövrdə ədliyyə naziri Xəlilbəy Xasməmmədovun təqdimatı ilə 14 noyabr 1918-ci il tarixdə Azərbaycan Demokratik Cümhuriyyətinin qərarı ilə "Azərbaycan məhkəmə palatası" və onun əsasnaməsi təsdiq edilmiş, eyni zamanda, ştat üzrə prokurorlar təyin edilərək fəaliyyət göstərmişlər.

28 aprel 1920-ci il tarixdə 11-ci ordunun zəbti nəticəsində Azərbaycan Demokratik Respublikası öz səlahiyyətlərini bolşeviklərə verməklə fəaliyyətinə xitam vermiş, nəticədə Azərbaycan Sovet Sosialist Respublikası yaradılaraq yeni hökumət təşkil edilmişdir. İnqilab Komitəsinin 13 may 1920-ci il tarixli qərarına əsasən fəaliyyətdə olan 1918-ci ildə yaranmış "Məhkəmə palatası", Bakı, Gəncə dairə məhkəmələri, onların nəzdində olan rütbəli prokuror nəzarəti və məhkəmə müstəntiqləri, onlara bərabər andlı məhkəmələri, vəkillər idarəsi və məhkəmə pristavları ləğv edilmiş, bunların əvəzinə İnqilab Komitəsi nəzdində inqilabi qanunları müdafiə funksiyasını daşıyan yeni məhkəmə palatası və müstəntiqlərdən ibarət istintaq komissiyaları təsis edilmişdir.

28 may 1922-ci il Rusiya Ədliyyə Komissarlığı nəzdində Dövlət Prokurorluğu təsis olunmuşdur. Müvafiq olaraq 11 iyun 1922-ci il tarixdə Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin dekreti ilə Ədliyyə Komissarlığı nəzdində Dövlət Prokurorluğu təsis edildi. Həmin dekretə əsasən, dövlət adından bütün dövlət orqanlarında qanunların dürüst icrasına nəzarət etmək, təsərrüfat idarələri, şəxslər tərəfindən qanun pozuntularına yol verildiyi halda, qanunsuz qərarlardan protest vermək və təqsirkarlar haqqında cinayət işi qaldırmaq, cinayətlərin açılması sahəsində təhqiqat və istintaq orqanlarının fəaliyyətinə bilavasitə nəzarət etmək, məhkəmələrdə dövlət ittihamçısı kimi çıxış etmək, dustaqların təcridxanalarda qanuni saxlanılmasına nəzarət etmək prokurorluğa həvalə edilmişdir. Daha sonra Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin "Azərbaycanın məhkəmə quruluşu haqqında" 17 noyabr 1923-cü il tarixli qərarı ilə Ədliyyə Nazirliyi nəzdində Dövlət Prokurorluğu bir şöbə kimi yaradıldı.

1927-ci ilə Azərbaycan MİK-in qərarı ilə "Məhkəmə quruluşu haqqında əsasnaməni" təsdiq edərək Bakı və Gəncə dairə məhkəmələri əvəzinə 13 əyalət prokurorluqları yaradılmışdır. 1929-cu ildə isə respublikada yeni inzibati və ərazi bölgüləri ilə əlaqədar əyalət prokurorluqları ləğv edilərək əvəzinə 8 dairə prokurorluqları təsis edilmişdir. 1930-cu ildə Respublika Ədliyyə Nazirliyi ləğv edildikdən sonra prokurorluq Mərkəzi İcraiyyə Komitəsinin tabeliyinə verilməklə ona respublika prokuroru başçılıq edirdi.

1931-ci ildə isə Zaqafqaziya respublikaları prokurorluğu təşkil edilərkən Azərbaycan, Gürcüstan və Ermənistan prokurorluqları onun tabeliyində fəaliyyət göstərmişlər.

20 iyun 1933-cü ildə SSRİ Mərkəzi İcraiyyə Komitəsi və Xalq Komissarlar Sovetinin qərarı ilə ilk dəfə SSRİ Prokurorluğu yaradıldı, 17 dekabr 1933-cü ildə isə prokurorluq haqqında əsasnamə təsdiq edildi. Qərarla SSRİ Prokurorluğunun İttifaq respublikaları üzərində rəhbərliyinin formaları və əlaqələri müəyyənləşdirildi. Prokurorluqların mərkəzləşdirilməsi prosesi başa çatdıqdan sonra SSRİ Mərkəzi İcraiyyə Komitəsi və Xalq Komissarlar Sovetinin 20 iyul 1934-cü il tarixli qərarı ilə istintaq aparatı ittifaq və respublika ədliyyə komissarlıqları nəzdindən çıxarılıb SSRİ Prokurorluğuna tabe edildi.

1936-cı ildə SSRİ Konstitusiyası qəbul olunaraq əsas Qanunun 164-168-ci maddələri sovet dövlət orqanları sistemində prokurorluğun yerini, onun əsas vəzifələrini, mərkəzi və yerli hakimiyyət orqanları ilə qarşılıqlı münasibətini müəyyən etdi, bütün nazirliklər, dövlət komitələri və baş idarələr, müəssisə, idarə və təşkilatlar, yerli xalq deputatları sovetlərinin icraedici və sərəncamverici orqanları, kolxozlar, kooperativ təşkilatları və digər ictimai təşkilatlar, vəzifəli şəxslər, habelə vətəndaşlar tərəfindən qanunların dürüst və eyni qaydada riayət olunması üzərində Ali Nəzarət SSRİ Baş Prokurorluğuna və ona tabe olan prokurorluqlara həvalə edildi.

Azərbaycan Respublikasının əvvəlki Konstitusiyalarında prokurorluq müstəqil dövlət orqanı kimi öz əksini tapmışdır. Azərbaycan SSR-in 1936-cı, daha sonra 1978-ci il Konstitusiyalarında prokurorluğa böyük səlahiyyətlər verilməsi ilə prokurorluq dövlətin həyatında ona ayrılmış çoxşaxəli və vacib funksiyaların daşıyıcısına çevrildi.

SSRİ prokurorluğu hüquq sistemində öz yerindən irəli gələn vəzifələri icra edərkən dövlətin mənafeyini güdürdüsə, müasir prokurorluq insan hüquq və azadlıqlarının keşikçisi, onların təminatçısı qismində fəaliyyət göstərir.

Hakimiyyətin bölünməsi prinsipinin hüquq nəzəriyyəsində qəbul edilməsi, onun əvvəlcə 18 oktyabr 1991-ci il tarixli "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktının 13-cü maddəsində, daha sonra isə Azərbaycan Respublikası Konstitusiyasının 7-ci maddəsində göstərilməsi Azərbaycan Respublikasının dövlət hakimiyyəti sistemində prokurorluğun yerinin müəyyənləşdirilməsinə hüquqi əsaslar yaratmışdır. 12 noyabr 1995-ci il tarixli Azərbaycan Respublikasının Konstitusiyasına uyğun olaraq, Azərbaycan Respublikasının Prokurorluğu məhkəmə hakimiyyətinə aid edilmişdir. Prokurorluğun yerini məhkəmə hakimiyyəti sistemində müəyyən etməklə Azərbaycan Respublikası Konstitusiyası hüquqi varisliyi təmin etmişdir. Həmin varisliyin təsdiqinin əyani təcəssümü Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurasının 1 oktyabr 1918-ci il tarixli qərarı ilə Bakı Dairə Məhkəməsinin tərkibində prokurorluq orqanlarının fəaliyyətə başlamasını əsas tutaraq hər il oktyabr ayının 1-nin Azərbaycan Respublikası Prokurorluğu işçilərinin peşə bayramı günü kimi qeyd edilməsi barədə 17 iyul 1998-ci il tarixli sərəncamı olmuşdur.

Ölkəmiz müstəqilliyini bərpa etdikdən sonra Azərbaycan Respublikasının Prokurorluğu sinfi mənafelərə xidmət edən orqandan qanunun aliliyinin, insan hüquq və azadlıqlarının qorunmasına xidmət edən orqana çevrilməliydi. Bunun təməli ümummilli lider Heydər Əliyevin birbaşa rəhbərliyi altında işlənilib hazırlanmış müstəqil Azərbaycan Respublikasının Konstitusiyasında qoyulmuşdur.

Belə ki, 12 noyabr 1995-ci il tarixdə ümumxalq səsverməsi ilə qəbul edilmiş Konstitusiyamızda insan və vətəndaş hüquq və azadlıqlarının Respublika ərazisində birbaşa qüvvəyə malik olduğu, onların təmin edilməsi isə dövlətin ali məqsədi kimi təsbit edilmişdir. Bu baxımdan, təsadüfi deyil ki, dövlət həyatının bütün sahələrinin təşkili və fəaliyyət əsaslarını müəyyən edən Konstitusiya normalarının böyük qismi insan və vətəndaş hüquq və azadlıqlarına həsr olunmuşdur.

Dövlət quruculuğu prosesində mühüm rol oynayan ümummilli liderimiz Heydər Əliyevin 26 aprel 2000-ci il tarixdə prokurorluq orqanlarının rəhbər işçiləri ilə tarixi görüşündən sonra həyata keçirilən məqsədyönlü tədbirlər sayəsində prokurorluq orqanlarında köklü islahatlar və struktur dəyişiklikləri aparılmış, prokurorluqda sağlam kadr korpusunun formalaşdırılması prosesinə başlanılmış, zəruri normativ və maddi-texniki baza yaradılmış, demokratik mahiyyətdə tamamilə yenidən formalaşdırılmış bu orqanın normal və səmərəli fəaliyyəti üçün qanunverici əsaslar yaradılmışdır. Həmin görüşdə dərin məzmunlu nitq söyləyən ümummilli lider Heydər Əliyev prokurorluq orqanlarının fəaliyyətində əvvəllər yol verilmiş nöqsanların və çatışmazlıqların aradan qaldırılması üçün konkret tapşırıqlar vermişdir.

Müşavirədən sonra ölkədəki modernləşmə proseslərindən kənarda qalmış Azərbaycan Respublikası Prokurorluğunda Respublikanın Baş prokuroru, Zakir Qaralovun bilavasitə rəhbərliyi altında hərtərəfli islahatlara start verilmiş, ulu öndər Heydər Əliyevin proqram xarakterli çıxışından irəli gələn tövsiyələr çərçivəsində prokurorluqda görülməsi vacib olan işlərin əsas istiqamətləri müəyyənləşdirilmişdir. Prokurorluğun səlahiyyətləri və fəaliyyət istiqamətləri ilə yanaşı, onun yeni strukturu hazırlanmış, dövrün tələblərindən irəli gələrək bir sıra yeni idarələr, şöbələr yaradılmışdır. Ötən müddətdə qanunçuluq, hər kəsin qanun qarşısında hüquq bərabərliyi, fiziki və hüquqi şəxslərin hüquqlarına əməl və hörmət edilməsi, obyektivlik, qərəzsizlik, faktlara əsaslanma, vahidlik, mərkəzləşmə, siyasi bitərəflik bu gün prokurorluğun fəaliyyətinin əsas prinsiplərini təşkil etmişdir.

Ulu öndər Heydər Əliyevin layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev milli prokurorluq orqanlarının fəaliyyətini diqqət mərkəzində saxlamaqla yanaşı, öz qayğısını da göstərir. Prokurorluq orqanlarının fəaliyyətinin və strukturunun təkmilləşdirilməsi, kadr potensialının gücləndirilməsi, yeni nəsil prokurorların formalaşdırılması və peşəkarlığının artırılması, prokurorluğun maddi-texniki bazasının möhkəmləndirilməsi və işçilərinin sosial müdafiəsinin yüksəldilməsi məqsədilə 27 sentyabr 2008-ci il tarixli sərəncamla "Azərbaycan Respublikası Prokurorluğunun fəaliyyətinin müasirləşdirilməsinə dair 2009-2011-ci illər üçün Dövlət Proqramı" təsdiq edilmişdir.

Dövlət Proqramında nəzərdə tutulan tədbirlərin reallaşdırılması hüquq sisteminin inkişafı prosesində prokurorluğun rolunun artırılması, cinayətkarlığa qarşı mübarizə və istintaq aparılmasında digər hüquq-mühafizə orqanları ilə qarşılıqlı fəaliyyətin təşkili, prokurorluğun işində müasir elmi-texniki nailiyyətlərdən geniş istifadə olunması, mərkəzləşdirilmiş informasiya-kommunikasiya sisteminin yaradılması, dövlət ittihamının müdafiəsində peşəkarlığın yüksəldilməsi, beynəlxalq əlaqələrin genişləndirilməsi, habelə prokurorluq işçilərinin sosial müdafiəsinin gücləndirilməsi və prokurorluğun maddi-texniki təminatının yaxşılaşdırılması üçün hərtərəfli zəmin yaratmışdır.

Biz, prokurorluq işçiləri diqqət və qayğısını prokurorluqdan əsirgəmədiyi üçün möhtərəm Prezident cənab İlham Əliyevə dərin minnətdarlığımızı bildirir və əminik ki, onun rəhbərliyi altında yeni nailiyyətlər əldə edəcəyik.

**Rasim HACIYEV,**
**Yasamal rayon prokuroru,**
**baş ədliyyə müşaviri.**

# Türkiyə-Azərbaycan qardaşlığının növbəti əyani təcəssümü

**Ötən əsrin əvvəllərində cərəyan edən qlobal proseslərin obyektiv nəticəsi kimi 1918-ci ilin 28 mayında istiqlaliyyətini bütün dünyaya bəyan etmiş Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100-cü ildönümü respublikamızda son dərəcədə əlamətdar hadisə kimi qeyd edilir. Müsəlman Şərqində ilk demokratik və hüquqi dövlət quruluşunu yaratmış Cümhuriyyət cəmi 23 aylıq mövcudluğu dövründə xalqın milli mənlik şüurunu özünə qaytarmış, onun öz müqəddəratını təyin etməyə qadir olduğunu, müstəqillik əzmini əyani şəkildə nümayiş etdirmişdir.**

1918-1920-ci illərdə respublikada demokratik hüquq və azadlıqların bərqərar olması, etnik və dini mənsubiyyətindən asılı olmayaraq bütün vətəndaşlara bərabər hüquqların verilməsi, Şərqdə ilk dəfə olaraq qadınların seçki hüququnun tanınması, milli pulun dövriyyəyə buraxılması, ordunun, parlamentin, təhlükəsizlik strukturlarının formalaşdırılması, mətbuatın inkişafı Azərbaycan Xalq Cümhuriyyətinin qısamüddətli mövcudluğunun parlaq uğurları kimi xatırlanır.

Dövlətçilikdə irs-varislik əlaqələrini daim uca tutan Azərbaycan Prezidenti cənab İlham Əliyevin 16 may 2017-ci il tarixli "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi haqqında" Sərəncamında qeyd olunduğu kimi, həmin dövrdə *"Maarifin və mədəniyyətin inkişafına xüsusi diqqət yetirildi, Azərbaycanın ilk universiteti təsis olundu, təhsil milliləşdirildi, xalqın sonrakı illərdə mədəni yüksəlişi üçün zəmin hazırlayan, ictimai fikir tarixi baxımından müstəsna əhəmiyyətli işlər görüldü".*

Kifayət qədər mürəkkəb siyasi şəraitdə yaranmış Azərbaycan Xalq Cümhuriyyəti hökuməti ilk gündən xarici siyasət məsələlərinə də həssaslıqla yanaşmış, gənc müstəqil respublikanın beynəlxalq miqyasda tanıdılması, milli həqiqətlərin dünyaya çatdırılması, eləcə də qonşu və region dövlətləri ilə diplomatik münasibətlərin formalaşdırılması istiqamətində sistemli tədbirlər həyata keçirilmişdir.

Bu hədəflərin reallaşdırılması üçün Cümhuriyyətin bütün yeni yaradılmış hökumət kabinetlərində xarici siyasət idarəsinin fəaliyyətinə xüsusi yer verilir, onun hərtərəfli təchizatı diqqət mərkəzində saxlanılırdı. Həmin dövrdə xarici siyasət idarəsinə diplomatiya sahəsində səriştəsi olan Fətəli Xan Xoyski, Məmməd Həsən Hacınski, Məmməd Yusif Cəfərov, Adil xan Ziyadxanlı kimi şəxsiyyətlərin rəhbərlik etməsi bunu bir daha təsdiqləyir. Xarici siyasətin əsas istiqamətlərinin müəyyənləşməsində və həyata keçirilməsində Ə.M.Topçubaşov, M.Ə.Rəsulzadə, Ə.Ağayev, N.Yusifbəyli, Ə.Şeyxülislamov, C.Hacıbəyli, M.Y.Mehdiyev. M.Məhərrəmov, Ə.Haqverdiyev, Y.V.Çəmənzəminli və digərləri də yaxından iştirak edirdilər.

1918-ci ilin mayında Azərbaycanın müstəqilliyinin elan olunmasına baxmayaraq, respublika ərazisinin müəyyən hissəsi, o cümlədən Bakı və ətraf rayonlar erməni-bolşevik birləşmələrinin nəzarəti altında idi. Birinci Dünya müharibəsindən, habelə Rusiyada baş vermiş 1917-ci il fevral və oktyabr çevrilişlərindən istifadə edən ermənilər mənfur iddialarını bolşevik bayrağı altında reallaşdırmağa nail olmuş, Azərbaycanın bəzi bölgələrini, o cümlədən Bakını işğal etmişdilər. Bu isə yeni yaranmış Cümhuriyyətin tam müstəqilliyinə imkan vermir, onun fəaliyyətini məhdudlaşdırırdı. Müstəqilliyə yeni qovuşmuş, beynəlxalq aləmdə hələ tanınmayan gənc dövlətin isə özünün ərazi bütövlüyünü təmin etmək və daxildəki erməni-bolşevik birləşmələrini zərərsizləşdirmək imkanları hələ yetərincə deyildi.

Həmin dövrdə Cümhuriyyət hökuməti Azərbaycana tarixi tellərlə - dil, din, məfkurə birliyi ilə bağlı olduğu Türkiyə ilə diplomatik münasibətlər qurmağa, regionun bu qüdrətli dövlətinin siyasi və hərbi dəstəyini qazanmağa çalışırdı. Azərbaycan Xalq Cümhuriyyəti daxildə vəziyyəti sabitləşdirmək, respublikanın bəzi bölgələrini, o cümlədən Bakını erməni-bolşevik işğalından təmizləmək üçün qardaş Osmanlı Türkiyəsinin hərbi-siyasi dəstəyinə ehtiyac duyurdu. 1918-ci il iyunun 4-də imzalanmış "Osmanlı imperatorluğu hökuməti ilə Azərbaycan Respublikası arasında dostluq müqaviləsi" bu baxımdan xüsusi əhəmiyyət daşıyırdı.

Vəziyyətin gərginləşdiyini görən Osmanlı hökuməti - özünün də çox ağır durumuna baxmayaraq 1918-ci ilin iyununda qardaş Azərbaycanın ərazi bütövlüyünü təmin etmək məqsədilə Nuru Paşanın komandanlığı ilə hərbi qüvvələrini Azərbaycana göndərdi. Nuru Paşanın rəhbərlik etdiyi Qafqaz İslam Ordusu və Azərbaycan Korpusu iyun-avqust aylarında Gəncədə, Yevlaxda, Göyçayda, Kürdəmirdə və digər bölgələrdəki ağır döyüşlərdə eser-menşevik və daşnak qoşunlarını darmadağın edərək sentyabrın 15-də Bakıya daxil oldu.

Azərbaycan Xalq Cümhuriyyətinin 23 aylıq müstəqilliyi, ilk növbədə Bakı şəhərinin menşevik-eser və daşnak birləşmələrinin yaratdıqları qondarma "Sentrokaspi diktaturası"ndan azad olunması nəticəsində qorunub saxlanıldı. Yəni 100 il əvvəl - 1918-ci il sentyabrın 15-də Nuru paşanın rəhbərlik etdiyi Qafqaz İslam Ordusu Azərbaycan Korpusu ilə birgə Bakıya daxil olaraq şəhəri erməni-bolşevik işğalından təmizlədi və Azərbaycanın müstəqilliyinə böyük töhfə verdi. Qəhrəman türk əsgərlərinin şücaəti, qanı bahasına Bakı və digər rayonların azad olunması ilə Azərbaycan Xalq Cümhuriyyəti hökuməti hakimiyyətini ölkənin bütün hüdudlarında təmin etdi.

Beləliklə, 1918-ci ilin martından başlayaraq erməni daşnaklarının və bolşeviklərin Bakıda və Azərbaycanın digər bölgələrində birgə həyata keçirdikləri qanlı qırğınlara, özbaşınalıqlara son qoyuldu. Ermənilərin xalqımızı cismən məhv etmək və "böyük Ermənistan" yaratmaq xülyasının qarşısı qətiyyətlə alındı. Bakı "Sentrokaspi diktaturası"ndan azad edildikdən sonra Azərbaycan Xalq Cümhuriyyətinin paytaxtı sentyabrın 17-də Gəncədən Bakıya köçdü, mühüm dövlət təsisatları məhz burada yerləşdirildi, dövlət quruculuğunun əsas mərhələsinə start verildi.

1918-ci il sentyabrın 15-də Bakının azad olunması Azərbaycan-Türkiyə dostluğu və qardaşlığı zəminində müstəsna əhəmiyyət daşıyan hadisəyə çevrildi. Lakin 1918-ci ilin payızında Almaniya, Türkiyə, Avstriya-Macarıstan və Bolqarıstanın daxil olduğu Dördlər İttifaqının məğlubiyyətə uğraması təkcə Türkiyə üçün deyil, Azərbaycan Xalq Cümhuriyyəti üçün də son dərəcə ağır olan Mudros barışığının imzalanmasına səbəb oldu. Barışığın 11-ci maddəsinə görə Türkiyə ordusu tezliklə Azərbaycanı tərk etməli, on beşinci maddəyə görə Zaqafqaziya Dəmir yolu üzərində nəzarət hüququnu Antantaya verməli və müttəfiqlərin Bakını tutmasına etiraz etməməli idi. Osmanlı dövlətinin dünya müharibəsində məğlubiyyətə uğraması nəticəsində noyabrın 10-da Türkiyə qoşunları əvvəlcə Bakıdan, sonra isə bütün Azərbaycandan çıxdılar və bununla da Azərbaycan Xalq Cümhuriyyətinin xarici siyasətində Türkiyə oriyentasiyası mərhələsi başa çatdı.

Müsəlman Şərqinin ilk demokratiya quruluşlu dövləti xarici hərbi müdaxilə nəticəsində süquta uğrasa da, tarixi fakt, çağdaş prinsiplərə söykənən milli dövlətçilik ənənələrinin başlanğıc nöqtəsi kimi Azərbaycan xalqının yaddaşından heç zaman silinməmişdir. Cümhuriyyətin süqutundan sonrakı onilliklər ərzində həyata keçirilən repressiyalar, təzyiqlər insanlarımızın milli istiqlal duyğularına xələl gətirməmiş, imperiyanın antimilli, şovinist siyasəti ilə barışmayan xalqımız şərait yetişdikcə, istər konkret fərdlər, istərsə də qruplar şəklində milli haqlarımız uğrunda mücadilə aparmışdır. SSRİ kimi nəhəng imperiyanın süqutuna, Azərbaycanın dövlət müstəqilliyinin bərpasına gətirib çıxaran keşməkeşli və uzun mübarizə tarixinin ötən əsrin 70-ci illərin əvvəllərindən başlaması isə fenomenal şəxsiyyət, ümummilli lider Heydər Əliyevin xidmətləri ilə bilavasitə bağlıdır.



XX əsrdə Azərbaycan xalqının yetirdiyi nadir şəxsiyyət olan Heydər Əliyev AXC-nin süqutundan sonra siyasi reallıqdan çıxıb ideya formasında, azərbaycanlıların istiqlal duyğularında qığılcım kimi közərən milli dövlətçilik düşüncəsini - əsrin 70-ci illərinin əvvəllərindən başlamaqla əsrin sonlarına doğru - müstəqil Azərbaycan dövləti kimi əzəmətli bir reallığa qovuşdurmuş, böyük fədakarlıqlar hesabına qurub-yaratdığı bu dövlətin sarsılmazlığını, demokratik yüksəlişini, Azərbaycanın müstəqilliyinin əbədiliyini, daimiliyini, dönməzliyini təmin etmişdir.

Azərbaycan Respublikası 1991-ci ilin oktyabrında müstəqillik qazandıqdan sonra hüquqi dövlət ideyasının reallaşmasına zəmin yaradılması, milli-mənəvi dəyərlərə qayıdış, demokratik intibahın başlanması xalqın gələcək taleyi ilə bağlı bir sıra aktual problemlərin həlli zərurətini ön plana çıxarmış, yeni ictimai-iqtisadi formasiyada mahiyyətcə yeni proseslər cəmiyyətin bütün sferalarını əhatə edərək keçid dövrünün qeyri-müəyyənliyinin aradan qaldırılması üçün zəruri əsaslar formalaşdırmışdı. Eyni zamanda respublikamız 1993-cü ilin iyun ayınadək hakimiyyət boşluğunun doğurduğu bir sıra ağır fəlakətlərlə üzləşmiş, həqiqi müstəqilliyinə qovuşa bilməmişdi.

1993-cü ilin iyununda ümummilli lider Heydər Əliyevin xalqın təkidli tələbi ilə hakimiyyətə gəlişi isə Azərbaycan cəmiyyətində müstəqil dövlətçilik ideyalarının praktik şəkildə bərqərar olmasına fundamental əsaslar yaranmışdır. Ölkə xaosdan, vətəndaş müharibəsindən, hərc-mərclikdən, hüquqi nihilizmdən, bir sözlə dövlətçiliyini itirmək təhlükəsindən qurtulmuşdur. ümummilli lider Heydər Əliyev 1993-cü ildən ölkədə siyasi sabitliyi təmin etməklə yanaşı, demokratik və hüquqi dövlət modeli konsepsiyasını da uğurla həyata keçirməyə başlamışdır. Ulu öndər Heydər Əliyevin rəhbərliyi altında hazırlanaraq 1995-ci ilin 12 noyabrında ümumxalq səsverməsi yolu ilə qəbul edilmiş müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyası dövlətimizin tarixində hakimiyyət bölgüsü prinsipini, demokratik hüquqi və dünyəvi dövlət quruculuğunun hüquqi əsaslarını, insan hüquq və azadlıqlarının qeyri-şərtsiz təmin olunmasının bünövrəsini qoymuşdur.

1995-ci ilin 12 noyabrında Konstitusiyanın ümumxalq referendumuna çıxarılması ilə paralel şəkildə Azərbaycan Respublikası Milli Məclisinə ilk demokratik, azad seçkilərin keçirilməsi təmin edilmişdir. Müstəqil Azərbaycanın tamamilə şəffaf şəraitdə formalaşmış Milli Məclisi ilk gündən fəaliyyətini demokratiya, çoxpartiyalılıq, plüralizm, qanunun aliliyi prinsipləri üzərində qurmuş, çevik və məhsuldar fəaliyyətə başlamış, milli qanunvericiliyin Avropa standartlarına uyğunlaşdırılması naminə səylə işləmiş, ictimai etimadı doğrultmağa çalışmışdır. İnsan və vətəndaş hüquq və azadlıqlarının müdafiəsi, qanunun aliliyinin təmini məqsədilə aparılan islahatların əsasında inkişaf etmiş dövlətlərin hüquqi dövlət quruculuğu təcrübəsi, ümumbəşəri demokratik prinsiplər, Azərbaycan xalqının dövlətçilik tarixi və ənənələri dayanmışdır.

Azərbaycanın ictimai-fəlsəfi fikrinin görkəmli tədqiqatçısı - Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri akademik Ramiz Mehdiyev "Demokratiya yolunda: irs haqqında düşünərkən" əsərində yazır: *"Güclü hakimiyyət ideyası heç də milləti basıb əzən hakimi-mütləq bürokratik aparat ideyası deyildir. Əksinə, güclü hakimiyyət ideyası milli mövqelərdən düşünən, məmur aparatını özünə tabe etməyə qadir olan, dövlət quruculuğu və ictimai quruluş sahəsində millətin ideallarını bərqərar edən dövlət xadimlərindən millətin formalaşdırdığı siyasi sinfin hökmranlığıdır. Azərbaycanda məhz hakimiyyətin mərkəzləşdirilməsi sayəsində müstəqillik prinsiplərinə əsaslanan milli dövlətçilik yaratmaq mümkün olmuşdur. Dövlət müstəqilliyi, öz növbəsində, institusional demokratiyanı formalaşdırmağın başlanğıc nöqtəsi idi. Prezident Heydər Əliyev hesab edirdi ki, demokratiyaya transformasiya prosesi həm də dövlətçiliyin inkişafının mühüm mərhələsidir. Məhz onun səyləri sayəsində bu siyasət səmərəli dövlətçiliyə yönəldilmiş xətt oldu".*

Əzəmətli tarixə çevrilmiş 27 illik inkişaf yolunun ən parlaq nəticəsi ondan ibarətdir ki, bu gün Azərbaycan, sözün əsl mənasında, tam müstəqil siyasət yürüdən ölkədir. Bu gün müstəqil Azərbaycan dövlətinin öz siyasi dəst-xətti, dövlətçilik siması, inkişaf yolu vardır. Ötən illərdə respublikanın milli inkişaf strategiyası, siyasi-iqtisadi, mədəni-mənəvi təkamül konsepsiyası, vahid ideologiyası formalaşmışdır. Dövlətin milli maraqlara əsaslanan diplomatiyası, demokratikləşdirmə, hüquqi dövlət quruculuğu istiqamətində ardıcıl və məqsədyönlü fəaliyyəti də məhz milli müstəqilliyin praktik olaraq gerçəkləşdirilməsini təmin etmişdir. Eyni zamanda qloballaşma şəraitində milli özünəməxsusluğun qorunub saxlanması, habelə, milli-mənəvi dəyərlərə sədaqətlə yanaşı, ümumbəşəri dəyərlərin, beynəlxalq hüquq normalarının inkişaf etdirilməsi, böyük dövlətlər və qonşularla münasibətlərin qurulmasında tarazlığın qorunması Azərbaycanın müsbət siyasi aurasını, özünəməxsus beynəlxalq imicini formalaşdırmışdır.

Cümhuriyyətin xarici siyasət doktrinasına sadiqlik nümayiş etdirən müstəqil Azərbaycan diplomatik sferada qardaş Türkiyə Cümhuriyyəti ilə əlaqələrin inkişafına xüsusi diqqətlə yanaşır. Azərbaycan dövlət müstəqilliyini əldə etdikdən sonra Türkiyə ilə münasibətləri tarixi təməl üzərində sürətlə inkişaf etmiş, qısa müddətdə analoqu olmayan müttəfiqlik zirvəsinə yüksəlmişdir. İki dost ölkə arasında strateji müttəfiqlik münasibətləri ötən müddətdə ən yüksək pilləyə yüksəlmiş, əbədi və dönməz xarakter almışdır. Bütün bunların nəticəsidir ki, son illərdə hər iki müttəfiq ölkə müxtəlif beynəlxalq təşkilatlarda, o cümlədən BMT, Avropa Birliyi, ATƏT və Avropa Şurasında bir-birinə lazımi dəstəyi verirlər. Rəsmi Ankara bütün beynəlxalq toplantılarda Azərbaycanın haqlı mövqeyini müdafiə edərək Ermənistanın işğal etdiyi tarixi Azərbaycan torpaqlarını dərhal və qeyd-şərtsiz azad etməsi tələbini irəli sürür.

Hər iki strateji müttəfiq eyni zamanda bir sıra regional layihələrin həyata keçirilməsi sahəsində də səmərəli və fəal əməkdaşlıq edir. Xüsusən də ötən il istifadəyə verilmiş Bak-Tbilisi-Qars dəmiryolu xətti, bu il tikintisi yekunlaşmış TANAP layihəsi Azərbaycan və Türkiyənin regional mövqeyini və tranzit əhəmiyyətini nəzərəçarpacaq səviyyədə artırır. Dövlət başçılarının son illərdəki müntəzəm səfərləri mövcud əməkdaşlığın müxtəlif müstəvilərdə inkişafına təkan vermişdir.

Türkiyə Prezidenti cənab Rəcəb Tayyib Ərdoğanın Bakının türk qoşunları tərəfindən işğaldan azad olunmasının 100-cü ildönümü münasibətilə 2018-ci il sentyabrın 15-də paytaxtımızda keçirilmiş təntənəli hərbi paradda iştirakı və dərin məzmunlu nitqi deyilənlərin əyani göstəricisidir. Bu hərbi parad göstərdi ki, hazırda hərbi potensialına görə dünyanın ilk 50 dövləti sırasında olan Azərbaycan türk əsgərinin Bakının azad olunmasındakı tarixi xidmətini daim böyük ehtiramla, hörmətlə anır.

Son hərbi parad fonunda Azərbaycanın qüdrətli Silahlı Qüvvələrinin mövcudluğunu işğalçı tərəf, eləcə də dünya ictimaiyyəti bir daha görmüşdür. Bakının bayram libası geymiş Azadlıq meydanında keçirilən hərbi parad ölkəmizin müzəffər silahlı birləşmələrə malik olduğunu bir daha nümayiş etdirmişdir. Silahlı Qüvvələrin bütün qoşun növlərinin, hərbi birlik və birləşmələrin, hərbi tədris müəssisələrinin, həmçinin qanunvericilikdə nəzərdə tutulan başqa silahlı birləşmələrin şəxsi heyətinin, modernləşdirilmiş hərbi texnikanın, döyüş vertolyotlarının, təyyarələrin, gəmilərin iştirak etdiyi hərbi parad hər bir azərbaycanlıda, o cümlədən türkiyəli qardaşlarımızda qürur hissi doğurmuşdur. Çünki bu, Azərbaycan Silahlı Qüvvələrinin qüdrətindən, onun yenilməzliyindən, ölkəmizin ərazi bütövlüyünün bərpası üçün istənilən an zəfər yürüşünə hazır olmasından xəbər verən möhtəşəm tədbir idi.

Xüsusi vurğulamaq lazımdır ki, müdafiə məqsədilə ayrılan hərbi xərclərin ildən-ilə artması, eləcə də ölkədə hərbi təyinatlı məhsulların istehsalını həyata keçirən sənaye müəssisələrinin yaradılması da ordu quruculuğu baxımından vacib əhəmiyyətə malikdir. Azərbaycan müxtəlif xarici ölkələrdən müasir hərbi texnikalar alır, ordusunun arsenalında olan bir sıra texnikaların modernləşdirilməsini həyata keçirir. Eyni zamanda əvvəllər xaricdən alınan bəzi hərbi texnika və döyüş sursatları artıq Müdafiə Sənayesi Nazirliyinin tabeliyində olan müəssisələrdə istehsal olunur.

Azərbaycanın yerli istehsal hesabına ordusunun müxtəlif hərbi ləvazimatlara və döyüş sursatlarına olan ehtiyacını ödəməsi ölkəmizin Ermənistan qarşısında üstünlüyünü daha da artırır. Hərbi təyinatlı məhsullar istehsal edən Azərbaycan müdafiə sənayesinin qurulması prosesi elə böyük zaman kəsiyini əhatə etməsə də, burada ərsəyə gətirilən məmulatlar həm çeşidinə, həm də keyfiyyətinə görə müasir standartlara cavab verir.

Azərbaycanın paytaxtı Bakı şəhərinin bolşevik-daşnak birləşmələrindən azad olunmasının 100-cü ildönümü münasibətilə 2018-ci il sentyabrın 15-də "Azadlıq" meydanında təşkil olunmuş hərbi parad müzəffər Ordumuzun xalqımız qarşısında növbəti hesabatı olmuşdur. Parada yüksək səviyyəli hazırlıq işi, habelə Bakı səmasında uçuşlar edən Azərbaycan "şahinləri"nin yüksək pilotajlıq məharəti hər bir azərbaycanlıda böyük qürur və sevinc hissləri doğurmuşdur. Bu gün hər bir vətəndaş əmindir ki, Azərbaycan Ordusu Ali Baş Komandan, cənab Prezident İlham Əliyevin rəhbərliyi altında üzərinə düşən məsuliyyətli missiyanın öhdəsindən layiqincə gəlməyə, torpaqlarımızı düşmən tapdağından azad etməyə tam qadirdir.

**İlham MƏMMƏDZADƏ,**
**AMEA-nın Fəlsəfə İnstitutunun direktoru.**

# Prokurorluq orqanlarına hərtərəfli diqqət və qayğı



1991-ci ildə Azərbaycan öz müstəqilliyini yenidən bərpa etdikdən sonra respublikamız yeni dövrə qədəm qoymuşdur. Lakin müstəqilliyimizin ilk illərində AXC (AXCP) hakimiyyəti dövründə ölkəni bürümüş daxili didişmələr, anarxiya və xaos dövlət quruculuğuna böyük zərbə vurmuşdur. Xalqın israrlı tələbi ilə ulu öndər Heydər Əliyevin hakimiyyətə xilasedici qayıdışından sonra Azərbaycanda özbaşınalığa, siyasi hakimiyyətsizliyə birdəfəlik son qoyulmuşdur.

Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra prokurorluq orqanlarının da fəaliyyətində yeni bir dövr başlanmışdır. Bu dövrdə müstəqil dövlətçiliyimizin əleyhinə olan cinayətlər, görkəmli ictimai və dövlət xadimlərinə qarşı törədilən terror aktları, dövlət əmlakının mənimsənilməsi, bank-maliyyə sistemində baş vermiş ağır cinayət hadisələri, o cümlədən sadə vətəndaşlarımızın əmanətlərinin talan edilməsi kimi ağır cinayət hadisələri məhz prokurorluq orqanlarının əməkdaşları tərəfindən peşəkarcasına istintaq edilmiş, təqsirkar şəxslər layiqli cəzalarını almışlar. Bu dövrdə Azərbaycanda 1994-cü ilin oktyabr və 1995-ci ilin mart dövlət və hərbi çevrilişlərinə cəhdlərin qarşısı alınmışdır. Həmin hadisələrlə bağlı cinayət işlərinin istintaqının aparılmasında prokurorluğun bir qrup əməkdaşı xüsusilə fərqlənmişdir.

12 noyabr 1995-ci il Konstitusiyası ərazi və ixtisaslaşdırılmış prokurorluqların Azərbaycan Respublikası Baş Prokurorluğunun tabeçiliyinə verilməsinin təsbiti ilə onu vahid mərkəzləşdirilmiş orqan kimi tanımış və statusunu müəyyənləşdirmişdir. Bu statusa uyğun olaraq "Prokurorluq haqqında" 7 dekabr 1999-cu il tarixli Qanun, qanunla nəzərdə tutulmuş qaydada və hallarda qanunların icra və tətbiq olunmasına nəzarət etmək, cinayət işlərinin istintaqını aparmaq və ibtidai istintaqa prosessual rəhbərlik, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icra və tətbiqinə nəzarət, cinayət işlərinə baxılmasında dövlət ittihamının müdafiəsi, məhkəmələr tərəfindən təyin olunmuş cəzaların qanuna uyğunluqlarına nəzarət etmək kimi məsələlərini prokurorluğun fəaliyyət istiqamətlərinə aid etmişdir. 2002-ci il sentyabrın 19-da qüvvəyə minmiş "Azərbaycan Respublikasının Konstitusiyasında dəyişikliklər edilməsi haqqında" referendum aktına əsasən prokurorluğa həm də qanunvericilik təşəbbüsü hüququ verilmişdir.

Müstəqillik dövründə Azərbaycan Respublikasının Prokurorluğu ölkə rəhbəri ulu öndər Heydər Əliyevin daimi diqqət mərkəzində olmuşdur. Prokurorluğun fəaliyyətinin hüquqi əsasını təşkil edən normativ aktlar, o cümlədən "Prokurorluq haqqında", "Prokurorluq orqanlarında qulluq keçmə haqqında", "Prokurorluğun rəsmi emblemi haqqında", "Prokurorluq işçilərinin xidməti vəsiqəsi haqqında" qanunlar dövlət başçısının təşəbbüsü ilə qəbul olunmuş və "Prokurorluğa işə qəbul olunmaq üçün namizədlərlə müsabiqənin keçirilməsi qaydaları haqqında" Əsasnamə onun sərəncamı ilə təsdiq edilmişdir. "Azərbaycan Respublikası prokurorluq orqanları işçilərinin maddi və sosial təminatı haqqında" 2002-ci il 8 oktyabr tarixli sərəncam hörmətli Prezidentimizin prokurorluğa və prokurorluq işçilərinə göstərdiyi daimi qayğının parlaq bir təzahürüdür.

"Mən prokurorluqda işləyən insanların əksəriyyətini sədaqətli və peşəkar işçi hesab edirəm. Təbiidir ki, belə adamlara etimad göstərmək, etibar etmək lazımdır...", - bu sözlər ulu öndərimizin 26 aprel 2000-ci il tarixdə Azərbaycan Respublikasının prokurorluq orqanlarının rəhbər işçiləri ilə görüşü zamanı söylədiyi proqram xarakterli nitqindən götürülmüşdür.

Dahi rəhbərimiz Heydər Əliyevin 28 noyabr 1998-ci il tarixli "Prokurorluq orqanlarının 80 illik yubileyinə həsr olunmuş təntənəli yığıncağında isə prokurorluq orqanlarına yüksək qiymət verərək demişdir: "Azərbaycan Prezidenti kimi mən Azərbaycan prokurorluğuna inanıram, güvənirəm və arxalanıram".

Bu sözlər prokurorluğun tarixinə bir qızıl hərflərlə yazılmışdır. Bu kəlamlar hər yerdə və hər zaman prokurorluq işçilərinin ruh mənbəyi olmuşdur.

Prokurorluq həmişə və xüsusilə müstəqillik əldə olunduğu ağır illərdə ölkədə qanunun aliliyini və əmin-amanlığı layiqincə təmin etməyə nail olmuşdur.

Mən də fəxr edirəm ki, prokurorluqda qulluq etdiyim 35 ilin 18 ili ulu öndərimiz Heydər Əliyevin fəaliyyəti dövrünə təsadüf edir. Onun apardığı konfranslarda, plenumlarda, yığıncaqlarda, bəzi hallarda çıxışlarının iştirakçısı olmuşam. İş prosesində qarşıma çıxan ciddi maneələrlə əlaqədar onunla üç dəfə görüşmüşəm.

Təvazökarlıqdan uzaq olsa da səriştəli prokurorluq işçisi kimi təəssüratım odur ki, bu müqəddəs bir ocaqdır. Hər yerdən ümidi kəsilən şəxs prokurorluğa müraciət edir. Belə halda o bilir ki, şikayəti tam, ətraflı və obyektiv həll olunacaqdır.

Azərbaycan prokurorluğu orqanlarının əsas vəzifəsi ondan ibarətdir ki, digər hüquq-mühafizə orqanları ilə əlaqəli şəkildə ölkədə ictimai-siyasi sabitliyin və əmin-amanlığın qorunması, cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi, dövlət müstəqilliyimizin, demokratik hüquq və azadlıqların etibarlı müdafiəsi üçün zəruri tədbirlərin vaxtında həyata keçirilsin.

Ulu öndərimiz Heydər Əliyev Azərbaycan Xalq Cümhuriyyətinin Nazirlər Şurasının 1 oktyabr 1918-ci il tarixli qərarı ilə Bakı Dairə Məhkəməsinin tərkibində prokurorluq orqanlarının fəaliyyətə başlanmasını əsas tutaraq hər il oktyabr ayının 1-ni Azərbaycan Respublikası Prokurorluğu işçilərinin peşə bayramı günü kimi qeyd edilməsi barədə 17 iyul 1998-ci il tarixli sərəncam imzalamışdır.

Ona görə də Azərbaycan Respublikası prokurorluğu orqanlarının bütün əməkdaşları, təqaüddə olan veteranlar və ölkəmizin hüquq ictimaiyyəti Azərbaycan Respublikası Prezidentinin həmin sərəncamına müvafiq olaraq "Prokurorluq işçilərinin peşə bayramı günü"nü və Azərbaycan prokurorluğunun 100 illik yubileyini qeyd etməyə hazırlaşırlar.

Çox sevindirici haldır ki, Heydər Əliyev ideyalarının, onun müdrik dövlətçilik siyasətinin layiqli davamçısı olan Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən də prokurorluq orqanlarına hərtərəfli qayğı və diqqət göstərilir, mühüm dövlət təsisatlarından biri kimi onun normal fəaliyyəti üçün zəruri təminatlar yaradılması istiqamətində məqsədyönlü işlər görülür.

Azərbaycan dövləti müstəqillik əldə etdikdən sonra ulu öndər Heydər Əliyev tərəfindən çox təcrübəli, istedadlı, təşkilatçı hüquqşünas olan Zakir Qaralovu respublikanın Baş prokuroru təyin etmişdir. O, ona göstərilən etimadı doğruldaraq hazırda da iş fəaliyyətini müvəffəqiyyətlə davam etdirir.

Biz veteranlar onun şahidiyik ki, Z.Qaralov prokurorluq orqanlarında ciddi islahatlar aparmış, nizam-intizamı möhkəmləndirmiş, müstəntiqlərin iş şəraitini yaxşılaşdırmış, gənc hüquqşünasların hesabına kadrların tərkibini tamamilə yeniləşdirmiş və prokurorluqda sağlam mühit yaratmışdır. Bu işdə ona daha böyük uğurlar diləyirik.

**Cahangir NƏSİROV,**
**Azərbaycan Respublikasının Veteranlar Təşkilatında Şöbə müdiri, baş ədliyyə müşaviri.**

TƏKRAR

## "AZERGOLD" QSC
# AÇIQ TENDERƏ DƏVƏT EDİR

**Tender 1 lot üzrə keçirilir:**

**Lot 1** - Dağ-mədən və kəşfiyyat sahələrində ekoloji monitorinq-qiymətləndirmə aparılması xidmətinin satınalınması

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi peşəkarlığa, təcrübəyə, texniki və maliyyə imkanlarına, işçi qüvvəsinə, idarəetmə səriştəsinə və etibarlığa malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər lot üzrə iştirak haqqını aşağıda göstərilən hesaba köçürdükdən sonra ödəniş sənədini və tenderdə iştirak etmək üçün rəsmi müraciət ərizəsini "AzerGold" QSC-nin Tender Komissiyasına (Bakı şəhəri, Səbail rayonu, Mikayıl Müşfiq 2H, Əlaqələndirici şəxs: Rafiq Abdullayev, Tel.: 012-505-02-02 (dax. 1107), I-V günlər, saat 09.00-dan 18.00-dək) təqdim etməklə Azərbaycan dilində tərtib olunmuş Əsas Şərtlər Toplusunu əldə edə bilərlər.

**İştirak haqqı: Lot 1 - 130 manat. İştirak haqqı heç bir halda geri qaytarılmır.**

*Hesab: AZ85PAHA38020AZNHC0190068658*
*VÖEN: 1403467421*
*Bank: "PAŞA Bank" ASC*
*Kodu: 505141*
*VÖEN: 1700767721*
*M/H: AZ82NABZ01350100000000071944*
*S.W.İ.F.T: PAHAAZ22*

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

1. Tenderdə iştirak etmək üçün yazılı müraciət;
2. Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;
3. Tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);
4. Tender təklifi dəyərinin 1%-i həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);
5. İddiaçının son bir ildəki (əgər daha az müddət fəaliyyət göstərirsə, bütün fəaliyyəti dövründəki) maliyyə vəziyyəti barədə bank tərəfindən verilmiş arayış;
6. İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və bank rekvizitləri;
7. Digər müvafiq sənədlər (Əsas Şərtlər Toplusunda müəyyən edilmiş müvafiq sənədlər)

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) təqdim olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununa uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və tender təklifinin təminatı istisna olmaqla) **15 oktyabr 2018-ci il saat 15.00-a qədər,** tender təklifi və tender təklifinin təminatını isə möhürlənmiş, imzalanmış və ikiqat zərfdə olmaqla 2 nüsxədə (əsli və surəti) **23 oktyabr 2018-ci il saat 15.00-a qədər** "AzerGold" QSC-nin Tender Komissiyasına Bakı şəhəri, Səbail rayonu, Mikayıl Müşfiq 2H ünvanına təqdim etməlidirlər. Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

Tender üzrə təklif zərflərinin açılışı **24 oktyabr 2018-ci il saat 15.00-da** Bakı şəhəri, Səbail rayonu, Mikayıl Müşfiq 2H ünvanında keçiriləcəkdir. İddiaçıların səlahiyyətli nümayəndələri açılışda iştirak edə bilərlər.

**"AzerGold" QSC,**
**Tender Komissiyası.**

## "AZERGOLD" QSC
# AÇIQ TENDERƏ DƏVƏT EDİR

**Tender 1 lot üzrə keçirilir:**

**Lot 1** - Daşkəsən rayonunda yerləşən "Çovdar" mədən ərazisi üzrə mühafizə xidmətinin satınalınması

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi peşəkarlığa, təcrübəyə, texniki və maliyyə imkanlarına, işçi qüvvəsinə, idarəetmə səriştəsinə və etibarlığa malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər lot üzrə iştirak haqqını aşağıda göstərilən hesaba köçürdükdən sonra ödəniş sənədini və tenderdə iştirak etmək üçün rəsmi müraciət ərizəsini "AzerGold" QSC-nin Tender Komissiyasına (Bakı şəhəri, Səbail rayonu, Mikayıl Müşfiq 2H, Əlaqələndirici şəxs: Rafiq Abdullayev, Tel: 012-505-02-02 (dax.1107), I-V günlər, saat 09.00-dan 18.00-dək) təqdim etməklə Azərbaycan dilində tərtib olunmuş Əsas Şərtlər Toplusunu əldə edə bilərlər.

**İştirak haqqı: Lot 1 - 150 manat. İştirak haqqı heç bir halda geri qaytarılmır.**

*Hesab: AZ85PAHA38020AZNHC0190068658*
*VÖEN: 1403467421*
*Bank: "PAŞA Bank" ASC*
*Kodu: 505141*
*VÖEN: 1700767721*
*M/H: AZ82NABZ01350100000000071944*
*S.W.İ.F.T: PAHAAZ22*

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

*1. Tenderdə iştirak etmək üçün yazılı müraciət;*
*2. Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
*3. Tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
*4. Tender təklifi dəyərinin 1 %-i həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
*5. İddiaçının son bir ildəki (əgər daha az müddət fəaliyyət göstərirsə, bütün fəaliyyəti dövründəki) maliyyə vəziyyəti barədə bank tərəfindən verilmiş arayış;*
*6. İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və bank rekvizitləri;*
*7. Digər müvafiq sənədlər (malgöndərənlərin (podratçıların) ixtisasına dair müəyyən edilmiş müvafiq sənədlər).*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) təqdim olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununa uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və tender təklifinin təminatı istisna olmaqla) **26 oktyabr 2018-ci il saat 15.00-a qədər,** tender təklifi və tender təklifinin təminatını isə möhürlənmiş, imzalanmış və ikiqat zərfdə olmaqla 2 nüsxədə (əsli və surəti) **05 noyabr 2018-ci il saat 15.00-a qədər** "AzerGold" QSC-nin Tender Komissiyasına Bakı şəhəri, Səbail rayonu, Mikayıl Müşfiq 2H ünvanına təqdim etməlidirlər. Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

Tender üzrə təklif zərflərinin açılışı **06 noyabr 2018-ci il saat 15.00-da** Bakı şəhəri, Səbail rayonu, Mikayıl Müşfiq 2H ünvanında keçiriləcəkdir. İddiaçıların səlahiyyətli nümayəndələri açılışda iştirak edə bilərlər.

**"AzerGold" QSC,**
**Tender Komissiyası.**

## Şəki Apellyasiya Məhkəməsi
# AÇIQ TENDER ELAN EDİR

**LOT-1.** Minik avtomobilinin satınalınması.

Tender iştirakçılarına təklif edilir ki, "Dövlət Satınalmalar haqqında" Azərbaycan Respublikası Qanununa uyğun olaraq göstərilən lot üzrə öz tender təkliflərini imzalanmış, möhürlənmiş, ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Təkliflərin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: aşağı qiymət, yüksək keyfiyyət, müqavilənin vaxtında yerinə yetirilməsi, maliyyə vəziyyəti, zəmanət müddəti.

İştirak haqqını sifarişçinin aşağıdakı hesablaşma hesabına köçürdükdən sonra lot üzrə əsas şərtlər toplusunu Şəki şəhəri, Salman Mümtaz küçəsi, 1004 ünvanında yerləşən Şəki Apellyasiya Məhkəməsindən (əlaqələndirici şəxs: Əhməd-Muxtar Sədiyev, telefon: 044-277-09-30) ala bilərlər.

**İştirak haqqı: Lot 1 üzrə 160 (bir yüz altmış) manat.**

*Bank: "Kapitalbank" ASC-nin Şəki filialı*
*Kod: 200703*
*VÖEN: 9900003611*
*M/H: AZ37NABZ01350100000000001944*
*S.W.İ.F.T. BİK AİİBAZ 2X*
*Təşkilat: Şəki Apellyasiya Məhkəməsi*
*H/H: AZ03AİİB32051019447000201170*
*VÖEN: 3000104011*

**Ödənişin təyinatı: Şəki Apellyasiya Məhkəməsi tərəfindən (VÖEN: 3000355551) 25.09.2018-ci ildə elan edilmiş tenderdə iştirak haqqının ödənilməsi.**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçı tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidir:

*1. Tenderdə iştirak etmək üçün ərizə;*
*2. Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərinin olmaması haqqında arayış;*
*3. İştirakçının son bir ildəki (əgər daha az müddətdə fəaliyyət göstərirsə, bütün fəaliyyət dövründəki) maliyyə vəziyyəti haqqında bank tərəfindən verilmiş arayış;*
*4. İddiaçının tam adı, hüquqi statusu, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
*5. Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
*6. Tender təklifi (zərflərin açıldığı gündən sonra azı 30 bank günü qüvvədə olmalıdır);*
*7. Tender təklifinin dəyərinin 1%-i həcmində bank təminatı (tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır);*
*8. İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti.*

Tender təklifi qiymətinin 1 faizi həcmində (təklifin təminatı) bank zəmanəti (zərflərin açıldığı gündən ən azı 60 bank günü müddətində qüvvədə olmalıdır).

Tender təklifləri Azərbaycan dilində 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank zəmanəti istisna olmaqla) 27 oktyabr 2018-ci il saat 18:00-dək təqdim etməlidirlər.

Tender təklifi və bank zəmanəti 6 noyabr 2018-ci il saat 18:00-dək təqdim olunmalıdır.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

Təklif zərfləri 7 noyabr 2018-ci il saat 12:00-da yuxarıda qeyd olunan ünvanda açılacaqdır. İddiaçıların səlahiyyətli nümayəndəsi etibarnamə əsasında tenderdə iştirak edə bilər.

**Tender Komissiyası.**

## SUMQAYIT DÖVLƏT UNİVERSİTETİ
# AÇIQ TENDER ELAN EDİR

**Tender 1 (bir) LOT üzrə keçirilir:**

Müaqviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyən LOT üzrə aşağıdakı məbləğdə iştirak haqqı göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Sumqayıt şəhəri, 43-cü məhəllə. (Əlaqələndirici şəxs: Sofiyev Rafiq, tel/faks: (012) 448-44-56.

**LOT-1. Toyoto Avolonun alınması.**
**İştirak haqqı 150 (yüz əlli) manat.**

*Sumqayıt Dövlət Universiteti*
*VÖEN: 2900367701*
*Kapital Bank ASC-nin Sumqayıt filialı*
*VÖEN: 9900003611*
*Müxbir hesab: AZ37NABZ01350100000000001944*
*BİK: AİİBAZ2X*
*Kod: 200253*
*H/H: AZ35AİİB38060019440146617125*

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

*-Tenderdə iştirak etmək üçün yazılı müraciət*
*-Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
*-Tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
*-Tender dəyərinin 2%-i həcmində bank təminatı;*
*-Azərbaycan Respublikasında vergilər və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
*-İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
*-İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
*-İddiaçın tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləti.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və sürəti) tətib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmalar haqqında" qanuna uyğun olaraq keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 25 oktyabr 2018-ci il 17:00-a qədər, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə 06 noyabr 2018-ci il saat 17:00-a qədər Sumqayıt şəhəri, Bakı küçəsi 1., Sumqayıt Dövlət Universitetinin ümumi şöbəsinə təqdim etməlidirlər.

Göstərilmiş vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır. İddiaçıların təklifi 07 noyabr 2018-ci il 14:00-da göstərilən ünvanda açılacaq.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

## "Bakı Metropoliteni" QSC Bənövşəyi xətti üzrə şərti adı "B03" stansiyasında "Qatarların hərəkət istiqaməti göstəricisi sistemi" və "Sərnişin məlumat sistemi" üçün monitorların alınması, quraşdırılması və işə buraxılması işlərinin satınalınması üzrə
# AÇIQ TENDER ELAN EDİR

**Tender 1 (bir) lot üzrə keçirilir:**

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər lot üzrə aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, M.Rəfili küçəsi 20-dən (Əlaqələndirici şəxs: İlqar Qasımov; telefon: 490-00-91) ala bilərlər.

**LOT-1.** "Bakı Metropoliteni" QSC-nin Bənövşəyi xətti üzrə şərti adı "B03" stansiyasında "Qatarların hərəkət istiqaməti göstəricisi sistemi" və "Sərnişin məlumat sistemi" üçün monitorların alınması, quraşdırılması və işə buraxılması işlərinin satınalınması

**İştirak haqqı - 250 manat**

*Hesabın adı: BAKI METROPOLİTENİ QSC*
*Hesab nömrəsi (İBAN):*
*AZ98AZRT38050019440010268002 AZN*
*VÖEN 1402871431*
*Bankın adı: AZƏR TÜRK BANK ASC (Mərkəz Filialı)*
*Kod: 501361*
*VÖEN: 9900006111*
*Müxbir hesabı: AZ02NABZ01350100000000022944*
*SWİFT BİK: AZRTAZ22*

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

*-tenderdə iştirak etmək üçün yazılı müraciət;*
*-tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
*-tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 40 bank günü qüvvədə olmalıdır);*
*-tender təklifi dəyərinin 2%-i həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 70 bank günü qüvvədə olmalıdır).*
*-Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
*-iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
*-iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
*-iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

